# ELM

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

Qüvvət elmdədir...

Nizami Gəncəvi

# НАУКА

Орган Президиума Национальной академии наук Азербайджана

# SCIENCE

Newspaper of the Presidium of the Azerbaijan National Academy of Sciences

№ 10 (1407) ❖ Cümə, 15 mart 2024-cü il ❖ Qəzet 1984-cü ildən nəşr olunur





# Bakıda "Parçalanmış dünyanın bərpası" mövzusunda XI Qlobal Bakı Forumu işə başlayıb

## *Prezident İlham Əliyev Forumun açılış mərasimində iştirak edib*

**Martın 14-də Bakıda, "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "Parçalanmış dünyanın bərpası" mövzusunda XI Qlobal Bakı Forumu işə başlayıb.**

**Prezident İlham Əliyev Forumun açılış mərasimində iştirak edib.**

XI Qlobal Bakı Forumunu açıq elan edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin salamlamadan sonra Forum haqqında məlumat verərək, görüşün "Parçalanmış dünyanın bərpası" adı altında olduğunu bildirib: "Dünya həqiqətən parçalanıb, hər yerdə ciddi çağırışlar var. Əslində, biz təhlükənin hökm sürdüyü vaxtda görüşürük. Lakin bizim görüş, həmçinin vədlər dövrünə də təsadüf edir. Təhdidlər ətrafdadır, yeni dünya düzəni yarandığı bir dövrdə böyük güclər formalaşmış düzənin quruluşunu parçalayır, mövcud sülh və təhlükəsizlik qaydalarının dəyişdirilməsi prosesinə cəlb olunurlar".

Həmsədr qeyd edib ki, Qlobal Bakı Forumu məxsusi təcrübəyə və müdrikliyə malik, fərqli rəyləri söyləyən tanınmış insanları bir araya gətirən unikal azadlıq məkanıdır və orada onlar təhdidləri azaltmaq və vədləri həyata keçirmək üçün bütün həmin məsələlərlə bağlı öz fikirlərini ifadə edə bilərlər: "Ümid edirik ki, həmin müzakirələrin nəticələri təhlillərə imkan yaradacaq və BMT-nin qarşıdan gələn sammitini və bu ilin sonunda COP29 görüşlərindəki müzakirələri zənginləşdirəcək. Cənab Prezident Əliyev həmin tədbirə ev sahibliyi edəcək".

Dövlətimizin başçısı Forumun açılış mərasimində çıxış edib.

Prezident İlham Əliyev Bakı Qlobal Forumunun Davos Dünya İqtisadi Forumu və Münxen Təhlükəsizlik Konfransı kimi aparıcı beynəlxalq forumlarla bir cərgədə olduğunu deyib: "Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin potensialı, iştirakçıların siyahısı baxımından biz həqiqətən də görürük ki, hər il Bakıda keçirilən müzakirələr müxtəlif mühüm beynəlxalq məsələləri daha yaxşı anlamağa imkan verir... Ona görə də qlobal əhəmiyyət kəsb edən məsələlərin həlli üçün bu gün dünyanın həqiqətən də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvlərinin və iştirakçılarının təcrübəsinə, biliyinə, onların dövlət, hökumət başçıları və xarici işlər nazirləri kimi təcrübəsinə ehtiyacı var".

Dövlətimizin başçısı ötən görüşlərdən bu yana dünyada, eləcə də regionda çox hadisələrin baş verdiyini qeyd edib: "Regionumuzdakı dəyişikliklər lokal xarakterli kimi görünə bilər, əslində isə, zənnimcə, onların daha geniş fəsadları var. Çünki bir il bundan əvvəl burada ötən görüşümüzdən bu yana baş verən əsas geosiyasi dəyişiklik Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin tam bərpasıdır... Ötən ilin sentyabrında 24 saatdan da az vaxt ərzində həyata keçirdiyimiz antiterror əməliyyatının nəticəsidir ki, Azərbaycanda separatçılığa birdəfəlik son qoyduq və suverenliyimizi, ərazi bütövlüyümüzü bərpa etdik".

Prezident İlham Əliyev çıxışında COP29 mövzusuna da diqqət çəkib: "Biz əminik ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi hazırlıq işləri və tədbirin keçirilməsi zamanı Azərbaycanın fəal tərəfdaşı olacaqdır. COP29-un Azərbaycanda keçirilməsi Azərbaycanın yaşıl keçidlə bağlı səylərinin qəbul edilməsidir. Dəfələrlə ictimai bəyanatlarda da dediyim kimi, neft və qaz sərvətlərinə sahib olmağımız bizim günahımız deyil və biz buna görə tənqid edilməməliyik. Hesab edirəm ki, bizi tənqid etməyə cəhd göstərənlər və bu qlobal tədbirə ev sahibliyi etmək şərəfinə bizi layiq görənlər anlamalıdırlar ki, bizim niyyətimiz iqlim məsələlərinə töhfə verməkdir. Artıq yaşıl keçidlə bağlı bütün gördüyümüz işlərin praktiki nəticələri var COP29 bizə onu nümayiş etdirməyə imkan verəcəkdir ki, müstəqil yaşayan və heç kəsdən asılı olmayan bir ölkə uğurla inkişaf edə bilər. Bu, həm də Azərbaycanın son 30 ildə apardığı düzgün siyasəti nümayiş etdirir".

Dövlətimizin başçısı çıxışının sonunda bütün iştirakçılara, xüsusilə də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə təşəkkürünü bildirib və Foruma uğurlar arzu edib.

Sonra Latviyanın sabiq Prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike-Freyberqa çıxış edərək irəli sürülən fikirlərin reallıqda və tətbiq edildiyi zaman bəhrə verəcəyinə ümid etdiyini deyib: "Çünki dünyada baş verənlər əsasən insan fəaliyyətinin nəticəsidir. Parçalanmalar insan fəaliyyəti nəticəsində olur, onları da insan fəaliyyəti ilə aradan qaldırmaq və düzəltmək olar. Ümid edirəm ki, Forumumuz uğurlu və çox maraqlı olacaq".

Forumda Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə xatirə hədiyyəsi təqdim edib.

Daha sonra Forumda Albaniya Prezidenti Bayram Beqay, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin serb üzvü Jelka Tsviyanoviç, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesus, BMT Baş katibinin siyasət üzrə müavini Qay Rayder, BMT-nin İnsanın İmmunçatışmazlığı Virusu/Qazanılmış İmmun Çatışmazlığı Sindromu üzrə Birgə Proqramının (UNAIDS) icraçı direktoru Vinni Byanyima, BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anxel Moratinos çıxış ediblər.

Tədbirdə Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın, Böyük Britaniyanın Azərbaycandakı səfiri Fergus Auld isə Birləşmiş Krallığın Baş naziri Rişi Sunakın Forum iştirakçılarına məktublarını oxuyublar.

"Parçalanmış dünyanın bərpası" ("Fixing The Fractured World") mövzusuna həsr olunan XI Qlobal Bakı Forumuna bir çox ölkələrin, eləcə də nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri qatılıblar. Forumda 70-dən artıq ölkədən 350-dən çox qonaq iştirak edir.

Martın 16-dək davam edəcək Forumda COP28-in nəticələri və COP29-a hazırlıq məqsədilə qlobal müzakirələr aparılacaq, yeni dünya nizamına təhdid yaradan amillərə, o cümlədən təhlükəsizlik məsələsinə və sülhün təmin olunması üçün perspektivlərə, parçalanmış dünyada dayanıqlılığın qurulmasına, onun qlobal sülhə təsirinə nəzər salınacaq, qarşıda duran çağırışların həlli yolları müzakirə olunacaq, dünyanı sarsıdan münaqişələrə, meqatəhdidlərə, o cümlədən iqlim, qida və nüvə təhlükəsizliyi problemlərinə toxunulacaq. Eyni zamanda, qlobal idarəetmədə hərbi və iqtisadi ittifaqların rolu, regional perspektivlər, Avropa İttifaqı və onun qonşuları ilə münasibətləri, gənclər siyasəti, qlobal çağırışlara qarşı davamlılığı artırmağın yolları, qeyri-bərabərlik, təbii ehtiyatların azlığı və miqrasiya məsələlərinə toxunulacaq, süni intellekt, dronlar və kibersilahlar dövründə yeni təhlükəsizlik nümunələri barədə müzakirələr aparılacaq.

# AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin Novruz bayramı münasibətilə Akademiya əməkdaşlarına təbriki

**Hörmətli həmkarlar!**

Sizi Novruz bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, cansağlığı, ailə səadəti, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Əsrlər boyu böyükdən kiçiyə xalqımız tərəfindən böyük coşqu hissə ilə qeyd olunan Novruz bayramı öz adət-ənənələri ilə milli dəyərlərimizin, mədəniyyətimizin formalaşmasında mühüm rol oynamışdır. Xalqımız tarixin bütün dövrlərində bu adət-ənənələrinə daim sadiq qalmış, Novruz bayramını bütün çətinliklərə və qadağalara baxmayaraq nəsildən-nəsilə ötürərək yaşada bilmişdir.

Novruz bayramı, həmçinin əsrlərdən gələn və bu gün bütün dünya üçün örnək olan milli birliyimizin və həmrəyliyimizin təmin olunmasına və güclənməsinə də öz misilsiz töhfələrini vermişdir. Ölkəmizdəki çoxsaylı xalqlar bu bayramı Azərbaycançılıq ideologiyası işığında böyük sevinc və təntənə ilə qeyd edirlər.

Daim xalqımızın adət-ənənələrinin, milli dəyərlərinin keşiyində dayanan Ulu Öndər Heydər Əliyev “Novruz bayramı Azərbaycan xalqının, azərbaycanlıların ən əziz bayramıdır”, - deyərək öz yüksək münasibətini göstərmiş, Novruz şənliklərində iştirak edərək xalqımızla birlikdə bu bayramı qeyd etmişdir.

Ümummilli Liderin layiqli davamçısı Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva da xalqımızın keçmişinə, adət-ənənələrinə, milli dəyərlərinə xüsusi qayğı ilə yanaşır, müasir qloballaşma dövründə onların qorunmasına çalışırlar.

Dövlət başçısı 20 mart 2021-ci ildə Şuşada Cıdır düzündə xalqımıza müraciətində deyirdi: “...2004-cü ildən başlayaraq, hər il mən Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edərkən deyirdim ki, biz öz doğma torpaqlarımıza qayıdacağıq. Deyirdim ki, biz ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyik. Deyirdim ki, biz Novruz bayramını torpaqlarımız işğaldan azad olunandan sonra Qarabağda qeyd edəcəyik”. Dövlət başçımızın Ali Baş Komandanlığı ilə Vətən müharibəsində əldə olunan tarixi Zəfərdən sonra artıq 4 ildir ki, Novruz bayramını Qarabağda da qeyd edirik. Ötən ilin sentyabrında həyata keçirilən və ölkəmizin tam suverenliyi ilə nəticələnən antiterror tədbirlərindən sonra isə bu il ilk dəfə olaraq bütün Azərbaycan ərazisində Novruz şənliyi qeyd olunur və bayram tonqalları alovlandırılır.

**Əziz həmkarlar!**

Artıq bahar yurdumuza qədəm qoyur. Od, su, yel, torpaq çərşənbələrinin gətirdiyi ruzi-bərəkət süfrələrinizdən əskik olmasın.

Sizi bir daha Novruz bayramı münasibətilə təbrik edir, sağlam, xoş günlər arzulayır, elmi fəaliyyətinizdə uğurlar diləyirəm.

**İsa HƏBİBBƏYLİ**
**Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik**

# Azərbaycan-Türkiyə elmi əməkdaşlığının yeni səhifəsi





**Martın 13-də AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Türkiyənin Çanaqqala Onsəkkiz Mart Universitetinin rektoru prof. Dr. Ramazan Cüneyt Erenoğlu ilə görüşüb.**

Görüşdə çıxış edən akademik İsa Həbibbəyli tarixi köklərə malik Azərbaycan-Türkiyə dostluq, qardaşlıq münasibətlərinin müasir dövrdə yeni mərhələyə qədəm qoyduğunu və bu əlaqələrin təməlində Ulu Öndər Heydər Əliyevin “Bir millət, iki dövlət” sözlərinin dayandığını söyləyib. Qeyd edib ki, bu gün Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın sıx dostluq münasibətləri sayəsində əməkdaşlığımız strateji müttəfiqlik səviyyəsinə yüksəlib və ölkələrimizin bütün qurumları, o cümlədən elmi qurumları arasında yaxın əlaqələr mövcuddur.

Qardaş Türkiyənin Vətən müharibəsində Azərbaycana verdiyi dəstəyi xatırladan akademik İsa Həbibbəyli eynilə Çanaqqala savaşında soydaşlarımızın da türk xalqının yanında olaraq şəhidlik zirvəsinə ucaldıqlarını, bu şəhərin ölkəmiz üçün daim doğma olduğunu bildirib.

AMEA-nın tarixi barədə məlumat verən akademik İsa Həbibbəyli gələn il Milli Elmlər Akademiyasının 80 illik yubileyinin qeyd olunacağını və rəhbərlik etdiyi qurumun ötən illər ərzində şərəfli yol keçərək Azərbaycan və dünya elmi üçün misilsiz töhfələr verdiyini vurğulayıb. Diqqətə çatdırıb ki, AMEA son illərdə Türkiyənin Elmi və Texnoloji Tədqiqat Şurası (TÜBİTAK), Türkiyə Elmlər Akademiyası (TUBA), Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumu və digər akademik və ali təhsil müəssisələri ilə sıx əməkdaşlıq edir.

Akademik İsa Həbibbəyli qeyd edib ki, ölkəmizdə elm və təhsil sahəsində aparılan islahatlardan sonra Elmlər Akademiyası öz tabeliyində humanitar və ictimai elmləri, o cümlədən Respublika Seysmoloji Xidmət Mərkəzini əhatə edir və bu istiqamətlərdə Çanaqqala Onsəkkiz Mart Universiteti ilə əməkdaşlıq etməyə hazırdır.

Dr. Ramazan Cüneyt Erenoğlu isə səmimi qəbula görə minnətdarlığını bildirib və öz növbəsində rəhbərlik etdiyi Çanaqqala Onsəkkiz Mart Universiteti və burada aparılan tədqiqatlar barədə məlumat verib. O, ədəbiyyat, tarix, arxeologiya, siyasi elmlər, seysmologiya sahələrində və birgə doktorantura hazırlığında Akademiya ilə əməkdaşlıqda maraqlı olduqlarını bildirib.

Çıxışlardan sonra Azərbaycan Milli Elmlər Akademiyası ilə Türkiyənin Çanaqqala Onsəkkiz Mart Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb. Sənədi akademik İsa Həbibbəyli və Dr. Ramazan Cüneyt Erenoğlu imzalayıblar.

Sonra qarşılıqlı hədiyyələr təqdim olunub.

Sonda qonaqlar AMEA-nın Rəyasət Heyətinin binası və AMEA-TÜBİTAK Koordinasiya Mərkəzi ilə tanış olublar.

Qeyd edək ki, görüşdə Çanaqqala Onsəkkiz Mart Universitetinin professoru Dr. Vedat Çalışkan, kulturologiya elmləri doktoru Çingiz Abdullayev, AMEA-nın Rəyasət Heyəti aparatının İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinin müdiri filologiya üzrə fəlsəfə doktoru Ağahüseyn Şükürov, Xarici əlaqələr və beynəlxalq təşkilatlarla iş şöbəsinin müdir müavinləri yer elmləri üzrə fəlsəfə doktoru Aytən Hüseynova və sosiologiya üzrə fəlsəfə doktoru Samir Səttarov da iştirak ediblər.



# AMEA prezidenti “İraq kültür bakanlığı mükafatı” ilə təltif olunub

**AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Akademiyanın Rəyasət Heyətində tanınmış kərküklü tədqiqatçı, şair və yazıçı Şəmsəddin Kuzəçi ilə görüşüb.**

Görüşdə Azərbaycan-Kərkük ədəbi əlaqələrindən söz açılıb, dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illik yubileyinin İraqda, görkəmli kərkük ədəbiyyatşünası Əta Tərzibaşının 100 illik yubileyinin isə Bakıda elmi konfranslarla keçirilməsi barədə fikir mübadiləsi aparılıb.

Kərküklü yazıçı Şəmsəddin Kuzəçi “İraq kültür bakanlığı ödülü” ilə təltif olunmuş akademik İsa Həbibbəyliyə mükafatı təqdim edib. Həmçinin türkmən yazarın yeni nəşr edilmiş “Məqalələr” toplusu da AMEA rəhbərinə hədiyyə olunub.

Akademik İsa Həbibbəyli bu günlərdə Akademiyada çap olunmuş Mahmud Kaşğarinin “Divani-lüğat-it-türk” və Məhəmməd Füzuliyə həsr olunmuş kitabları tanınmış türkmən yazıçısı və tədqiqatçısı Şəmsəddin Kuzəçiyə hədiyyə edib.

Görüşdə AMEA-nın birinci vitse-prezidenti v.i.e. akademik Arif Həşimov, AMEA-nın vitse-prezidentləri akademik İradə Hüseynova və akademik Gövhər Baxşəliyeva, həmçinin filologiya elmləri doktoru professor Qəzənfər Paşayev də iştirak ediblər.

# Kərkük Kültür Dərnəyi ilə elmi əməkdaşlıq müqaviləsi

**AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə Kərkük Kültür Dərnəyi arasında əməkdaşlıq müqaviləsi imzalanıb.**



Sənədi AMEA-nın prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru akademik İsa Həbibbəyli və Kərkük Kültür Dərnəyinin rəhbəri Dr. Şəmsəddin Kuzəçi imzalayıblar.

Müqavilənin imzalanmasında məqsəd tərəflər arasında qarşılıqlı faydalı elmi-mədəni əməkdaşlığın yaradılması və möhkəmləndirilməsi, İraq-Türkman ədəbiyyatının tədqiqi və nəşri istiqamətində birgə fəaliyyət üçün yeni imkanların yaradılması olub.

Müqavilə çərçivəsində tərəflər birgə elmi tədqiqatların aparılması, birgə elmi və praktiki tədbirlərin təşkili və nəşr işlərinin həyata keçirilməsi istiqamətində razılığa gəliblər.

Daha sonra Kərkük Kültür Dərnəyinin rəhbəri Dr. Şəmsəddin Kuzəçi İraq-Türkman mədəniyyətinə və incəsənətinə verdiyi töhfələrə görə akademik İsa Həbibbəyliyə Kərkük Kültür Dərnəyinin “Hizmet Fermanı”nı təqdim edib.

Sonda qarşılıqlı hədiyyələr təqdim olunub.

# AMEA Gəncə Bölməsində görkəmli ədəbiyyatşünas alim, akademik Həmid Araslının 115 illiyinə həsr olunmuş elmi konfrans

**AMEA-nın Gəncə Bölməsində görkəmli ədəbiyyatşünas alim, Əməkdar elm xadimi akademik Həmid Araslının anadan olmasının 115 illiyinə həsr olunmuş elmi konfrans keçirilib.**




"Akademik Həmid Araslı və Azərbaycan ədəbiyyatşünaslığı" mövzusundakı elmi-praktik konfrans Gəncə şəhər İcra Hakimiyyəti, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu və Gəncə Bölməsi tərəfindən təşkil olunub.

Konfransın işində AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin başçılığı ilə nümayəndə heyəti iştirak edib. Bakı, Gəncə və respublikanın digər şəhərlərinin elm və təhsil ocaqlarını təmsil edən alim və tədqiqatçılarla yanaşı, konfransa Özbəkistanın Daşkənd Dövlət Dil və Ədəbiyyat Universitetinin nümayəndələri də qatılıblar.





Tədbir iştirakçıları Gəncə şəhərinin mərkəzi meydanında Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, müasir dövlətçiliyimizin banisinin xatirəsinə ehtiramlarını bildirib, dahi şəxsiyyətin heykəlinin önünə gül dəstələri qoyublar. Sonra iştirakçılar Nizami Gəncəvinin məqbərəsini ziyarət ediblər. Bəşəriyyətin dahi fikir adamı və şairinin son mənzili, eləcə də onun bu ərazidə dəfn olunan ata-anasının və yaxınlarının qəbirləri ziyarət olunub.

Qonaqlar Nizami Gəncəvi Muzeyində də olub, burada saxlanılan qiymətli eksponatlara baxıblar. AMEA rəhbərliyi tərəfindən Nizami Gəncəvi Muzeyinə akademik Həmid Araslının böyük şairimiz Füzulinin yaradıcılığına həsr olunan tədqiqatlarına dair kitab hədiyyə edilib.



İclasdan əvvəl qonaqlar AMEA-nın Gəncə Bölməsində işıq üzü görmüş elmi nəşrlərdən ibarət sərgiyə baxıblar. Konfrans işinə bölmənin böyük salonunda başlayıb.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, vətənimizin bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb.

Konfransı giriş sözü ilə açan AMEA-nın Gəncə Bölməsinin sədri akademik Fuad Əliyev Azərbaycan, eləcə də Şərq dünyası ədəbiyyatşünaslıq elminin nəhəng simalarından olan akademik Həmid Araslının anadan olmasının 115 illiyinə həsr edilmiş mötəbər elmi forumun iştirakçılarını alimin doğma yurdu Gəncədə salamlamaqdan məmnunluq duyduğunu bildirib. O, konfransın işinə qatıldıqlarına görə AMEA-nın prezidenti akademik İsa Həbibbəyliyə, digər tanınmış alimlərə, eləcə də Özbəkistanlı qonaqlara Gəncənin elmi ictimaiyyəti adından minnətdarlığını bildirib.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli çıxışında müasir dövrümüzün ən əhəmiyyətli günlərindən olan 7 fevral Azərbaycan Respublikası Prezidenti seçkilərinin qalib millətimizin şərəflə başa vurduğu səhifələrindən biri kimi tariximizə yazıldığını qeyd edib. Prezident İlham Əliyevin andiçmə mərasimindəki çıxışının mahiyyətini ölkəmiz və xalqımız üçün yeni dövrün başladığını kimi xarakterizə edib, AMEA-nın bu dövrdə böyük elmi konfransının Gəncədə keçirildiyini vurğulayıb.

Akademik İsa Həbibbəyli ölkə başçısının Sərəncamı ilə böyük şairimiz Məhəmməd Füzulinin 530 illiyinin qeyd edilməsinin də məhz Azərbaycançılıq işığında həyata keçirilməsini vurğulayıb. O, akademik Həmid Araslının füzulişünaslığımızın başlanğıcında durduğunu qeyd edib.

Akademik İsa Həbibbəyli Həmid Araslının nizamişünaslığın əsasını qoyduğunu da xatırladıb və qeyd edib ki, Nizaminin Gəncəyə bağlı, Azərbaycan şairi olmasını alim 50 il bundan qabaq yazdığı "Şairin həyatı" kitabında sübut edir və bu əsər müasir tədqiqatlar üçün də mötəbər mənbədir. Həmid Araslının Türk dünyasının böyük şairi Əlişir Nəvai yaradıcılığı ilə bağlı araşdırmalarını nəvaişünaslığın bünövrəsi kimi dəyərləndirib və bu əməyinə görə, alimə Özbəkistanın Əməkdar elm xadimi adı verildiyini xatırladıb.

AMEA rəhbəri Azərbaycan və Özbəkistan alimlərinin bu xüsusda əməkdaşlığını yüksək qiymətləndirib, xüsusən Gəncə Bölməsinin Nizami Gəncəvi Mərkəzinin Özbəkistandakı həmkarları ilə əlaqələrinin təqdirəlayiq olduğuna diqqət çəkib. O, Gəncə Bölməsində də Əlişir Nəvai Mərkəzinin yaradılmasının məqsədəuyğunluğunu bildirib.

Görkəmli ədəbiyyatşünas alim Həmid Araslının millətimiz üçün ən böyük xidmətlərindən birinin "Kitabi-Dədə Qorqud"u nəşr etdirməsi və bu eposun araşdırması olduğunu xüsusi vurğulayan akademik İsa Həbibbəyli Gəncə Bölməsində akademik Fuad Əliyevin rəhbərliyi ilə aparılan tədqiqatlara, elmi nəşrlərə, keçirilən tədbirlərə görə bölmə əməkdaşlarına təşəkkür edib.

Akademik İsa Həbibbəyli ölkə başçısı tərəfindən görülən tədbirlər sayəsində dahi şəxsiyyətlərimizi yeni baxışla xalqımıza çatdırmağın milli-mənəvi intibaha xidmət etdiyini qeyd edib. Bu xüsusda o, AMEA tərəfindən nəşr edilən Həmid Araslının Füzuli yaradıcılığına dair kitabının da yeni nəşrini yüksək dəyərləndirib və həmin kitabın nüsxələrini Gəncə şəhər İcra Hakimiyyəti başçısının müavini Adil Tağıyevə və AMEA Gəncə Bölməsinin sədri akademik Fuad Əliyevə və Nizami Gəncəvi Mərkəzinin direktoru Əlimuxtar Muxtarova hədiyyə edib.

AMEA-nın prezidenti İsa Həbibbəyli Akademiya tərəfindən nəşr olunmuş türk millətinin ana kitablarından olan, 11-ci əsrdə yaşamış Mahmud Kaşğarinin "Divanü-lüğat-it-türk" əsərinin azərbaycanca nəşrini Gəncə şəhər İcra Hakimiyyətinə və Gəncə Bölməsinə təqdim edib.

Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetinin rektoru akademik Şuxrat Siracəddinov çıxışında özbək xalqının Azərbaycana, Nizami yurduna məhəbbətini və salamlarını çatdırıb. O, böyük Nizaminin məqbərəsinin ziyarətindən qürur və təsirli hisslər duyduğunu deyib. Şuxrat Siracəddinov Həmid Araslının adının özbək alimləri üçün də çox əziz olduğunu bildirib.

AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru akademik Teymur Kərimli çıxışında Həmid Araslını böyük Füzuli tədqiqatçısı kimi xarakterizə edib. O, qeyd edib ki, hazırda 10 cildlik "Azərbaycan ədəbiyyatı tarixi" hazırlanarkən Həmid Araslı da mənən yaşayır və 115 yaşında bir gənc kimi, alimlərimiz üçün örnəkdir.

Tədbirdə Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetinin beynəlxalq məsələlər üzrə prorektoru professor Nozliya Normuradova, Gəncə Bölməsinin Nizami Gəncəvi Mərkəzinin direktoru filologiya üzrə fəlsəfə doktoru Əlimuxtar Muxtarov, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşı fil.ü.f.d., dos. Zəhra Allahverdiyeva, Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetinin baş müəllimi filologiya elmləri doktoru Gülbahar Aşurova, Gəncə Dövlət Universitetinin müəllimi Cahan Ağamirov, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşı Hürnisə Bəşirova çıxış edərək böyük ədəbiyyatşünas alim Həmid Araslının Azərbaycan ədəbiyyatşünaslıq məktəbinin formalaşmasındakı rolundan söhbət açıblar.

Böyük alimimizin övladı, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Nizamişünaslıq şöbəsinin müdiri AMEA-nın müxbir üzvü Nüşabə Araslı çıxış edərək bildirib ki, ölkə rəhbərinin milli-mədəni dəyərlərimizə diqqəti sayəsində xalqımızın inkişafında rolu olmuş şəxsiyyətlərin irsinə yeni baxış formalaşır. Alimin övladı Həmid Araslının elmi irsinə və şəxsiyyətinə ehtiram və bugünkü dövrün tələbləri baxımından yaradıcı münasibətə görə AMEA-nın prezidenti akademik İsa Həbibbəyliyə, Gəncə Bölməsinin sədri akademik Fuad Əliyevə, konfransın iştirakçılarına və qonaqlarına, Gəncə şəhərinin rəhbərliyinə minnətdarlığını bildirib.

Konfransın sonunda bölmə tərəfindən Gəncənin qonaqlarına Həmid Araslıya həsr olunan konfransın materiallarını və bu böyük alim haqqında məşhur elm və ictimai xadimlərin fikirləri toplanmış kitablar, həmçinin bu qədim şəhərin tarixi abidələrini özündə əks etdirən tablolar hədiyyə olunub.

Daşkəndli qonaqlar bölməyə özbək milli rəmzlərinin təsviri olan hədiyyələr təqdim ediblər.

Sonra Gəncə Bölməsində Əlişir Nəvai Mərkəzinin yaradılması haqqında AMEA-nın Gəncə Bölməsi və Daşkənd Özbək Dili və Ədəbiyyatı Universiteti arasında memorandum imzalanıb. Sənədi AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin iştirakı ilə AMEA-nın Gəncə Bölməsinin sədri akademik Fuad Əliyev və Daşkənd Özbək Dili və Ədəbiyyatı Universitetinin rektoru akademik Şuxrat Siracəddinov imzalayıblar.

Akademik İsa Həbibbəyli mərkəzin yeni istiqamətlərin müəyyənləşməsinə, birgə tədqiqatların aparılmasına, həmçinin dost ölkələrimiz arasında ədəbi əlaqələrin daha da möhkəmlənməsinə töhfə verəcəyinə əminliyini bildirib.

Akademik Şuxrat Siracəddinov Daşkənddə Nizamişünaslıq və Füzulişünaslıq, Bakıda Nəvaişünaslıq mərkəzlərinin fəaliyyət göstərdiyini, indi isə bu yöndə Gəncədə addımlar atıldığını qeyd edib və sözügedən mərkəzlərin iki xalq arasında ədəbi-mədəni əlaqələrin inkişafında körpü rolunu oynadığını vurğulayıb.



# Akademik İsa Həbibbəyli görkəmli yazıçı Mir Cəlal Paşayevin Gəncə şəhərindəki ev muzeyində olub

**AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Gəncə şəhərində görkəmli yazıçı, ədəbiyyatşünas alim, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Əməkdar elm xadimi Mir Cəlal Paşayevin ev muzeyini ziyarət edib.**

Akademik İsa Həbibbəyli muzeylə yaxından tanış olub, xatirə kitabına ürək sözlərini yazıb.

# Gəncədə Xalq şairi Nigar Rəfibəylinin abidəsini ziyarət

**AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, tərcüməçi, Əməkdar mədəniyyət işçisi, Xalq şairi Nigar Rəfibəylinin Gəncə şəhərindəki abidəsini ziyarət edib.**

Akademiya rəhbəri şairin Gəncə şəhərindəki Xan Bağında yerləşən abidəsinin önünə gül dəstələri qoyub, xatirəsini yad edib.




**Qeyd edək ki, ziyarət AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin rəhbərlik etdiyi nümayəndə heyətinin Akademiyanın Gəncə Bölməsində keçirilən görkəmli ədəbiyyatşünas alim, akademik Həmid Araslının 115 illiyinə həsr olunmuş elmi konfransda iştirakı məqsədilə Gəncə şəhərinə səfəri zamanı baş tutub.**

# İkinci Dünya Müharibəsinin iştirakçısı ilə görüş

**AR Elm və Təhsil Nazirliyinin Fizika İnstitutunun rəhbərliyi bir qrup ziyalı ilə Quba şəhərinə səfər ediblər. Səfərdə məqsəd II Dünya Müharibəsi iştirakçısı Qaflan Ömərovun 100 illik yubileyi ilə əlaqədar onunla görüşmək olub.**



Görüşdə Q.Ömərov keçdiyi şərəfli ömür yolundan - Qubada və bütövlükdə respublikamızda çalışdığı müxtəlif sahələrdəki fəaliyyətindən, ictimai fəal kimi gördüyü işlərdən, rayonun yetişdirdiyi alimlərdən söhbət açıb. O, uzun illər 9 May - Qələbə Günü ilə əlaqədar müharibə iştirakçısı kimi Ulu Öndər Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə görüşlərindən, ona göstərilən dövlət qayğısından danışıb. Bildirib ki, uzun illər Fizika İnstitutunun əməkdaşları ilə görüşlərdə iştirak edib. O, institutun əməkdaşı, II Dünya Müharibəsinin iştirakçısı akademik Maqsud Əliyevlə bağlı xatirələrini qonaqlarla bölüşüb.

6 övladı, 16 nəvə və 32 nəticəsi olduğunu qeyd edən Q.Ömərov onlardan 5-nin alim olduğunu və bundan qürur duyduğunu bildirib. 100 yaşlı yubilyar bir neçə il əvvəl 9 mayda cənab Prezident İlham Əliyevin müharibə iştirakçıları ilə çəkdirdikləri xatirə şəklini qonaqlara göstərib. Qeyd edib ki, şəkildə əks olunanlardan sağdan sola birinci akademik Maqsud Əliyev, ikinci AMEA-nın İkinci xüsusi şöbəsinin müdiri Mütəllim Rəcəbov və 3-cü özü, yəni Qaflan Ömərov yer alıb.

Yubilyarı təbrik edən Fizika İnstitutunun baş direktoru akademik Arif Həşimov onun iti ağıla, unikal yaddaşa malik olduğunu qeyd edərək hər il onu ziyarət edib ad günlərində iştirak edəcəklərini bildirib.

Sonda yubilyarla xatirə şəkli çəkilib.

# Mədəniyyət və incəsənət sahəsində süni intellektin tətbiqi və tədrisi məsələlərinin müzakirəsi

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İnformasiya Texnologiyaları İnstitutu və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) elmi şuralarının birgə iclası keçirildi.**



Öncə ADMİU-nun rəhbərliyi və digər məsul əməkdaşları institutun AzScienceNet, Tədris-İnnovasiya, Multimedia Texnologiyaları və Elektron Kitabxana Mərkəzi ilə yaxından tanış oldular. AMEA-nın vitse-prezidenti, institutun baş direktoru, akademik Rasim Əliquliyev bu elmi qurumda IV Sənaye İnqilabının və dünyanın qlobal çağırışlarını, ölkəmizin milli və strateji maraqlarından irəli gələn elmi tədqiqatların aparıldığını söylədi. Akademik qeyd etdi ki, institutda süni intellekt, kiberdayanıqlılıq, Big Data, e-dövlət, e-təhsil, Əşyaların İnterneti və s. kimi aktual elmi-nəzəri və tətbiqi problemlər üzrə elmi tədqiqatlar aparılır, yüksəkixtisaslı kadr hazırlığı həyata keçirilir.

Sonra birgə iclas institutun böyük konfrans zalında keçirildi. Tədbirdə çıxış edən akademik Rasim Əliquliyev ali məktəblə elmi müəssisənin elm, təhsil və innovasiyanın inteqrasiyasının dərinləşdirilməsi istiqamətində birgə fəaliyyətin böyük əhəmiyyət kəsb etdiyini bildirdi. Alim Cənab Prezident İlham Əliyevin çıxışlarında qlobal texnoloji inkişafa adekvat olan, müasir dövrün tələblərinə cavab verən intellektual insan resurslarının yetişdirilməsinin dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu qeyd etdiyini, müvafiq dövlət qurumları və alimlərin qarşısında mühüm vəzifələr qoyulduğunu söylədi.

Alimin sözlərinə görə, mütəmadi olaraq "ağıllanan" süni intellekt texnologiyaları artıq yaradıcı insanlar üçün də ciddi problemlər və narahatlıqlar yaradır. Bütün bu intellektual texnologiyalar, eyni zamanda, bədniyyətli təşkilatların əlində çox güclü silaha çevrilir. Bu baxımdan müvafiq normativ-hüquqi bazanın formalaşdırılması və təkmilləşdirilməsi son dərəcə vacibdir. Artıq insanın bioloji, intellektual imkanları ilə süni intellektin imkanları müqayisəolunmaz həddə gəlib çatmışdır.

AMEA-nın vitse-prezidenti süni intellekt texnologiyalarının mədəniyyət və incəsənətin müxtəlif sahələrinə, yaradıcılıq proseslərinə transformasiyası istiqamətində birgə tədqiqatların aparılması, yüksəkixtisaslı kadrların, yeni nəsil yaradıcı insanların hazırlanmasının qarşıda duran mühüm vəzifələrdən olduğunu söylədi.

ADMİU-nun rektoru, sənətşünaslıq üzrə elmlər doktoru, professor Ceyran Mahmudova çıxış edərək, İnformasiya Texnologiyaları İnstitutu ilə elmi-tədqiqat üzrə birgə fəaliyyətlə yanaşı, tədrisin keyfiyyətinin yaxşılaşdırılması və kadr hazırlığı istiqamətində də uğurlu əməkdaşlığın həyata keçiriləcəyinə əminliyini ifadə etdi.

Professor Ceyran Mahmudova müasir dövrdə süni intellekt texnologiyalarının ictimai həyatın bütün sferalarına olduğu kimi, mədəniyyət və incəsənətin müxtəlif sahələrinə də dərindən nüfuz etdiyini bildirdi. Tələbələrə süni intellektin yaradıcılıq proseslərinə təsiri ilə bağlı yeni biliklərin verilməsinin zəruriliyini qeyd edən alim bu məqsədlə Mədəniyyət və İncəsənət Universitetinin bu elmi müəssisənin qabaqcıl təcrübəsindən, elmi potensialı və imkanlarından səmərəli istifadə etməsinin vacibliyini vurğuladı.

İnformasiya Texnologiyaları İnstitutunun şöbə müdiri, texnika üzrə fəlsəfə doktoru, dosent Fərhad Yusifov ADMİU-nun magistraturasında tədris üçün hazırlanmış "Süni intellekt və incəsənət" fənni üzrə proqram haqqında ətraflı məlumat verdi. O, proqramın institutun qabaqcıl alimlərinin təklifləri, həmçinin dünyanın aparıcı universitetlərinin təcrübəsinə əsaslanaraq tərtib edildiyini diqqətə çatdırdı.

Dosent Fərhad Yusifov ADMİU-nun magistrantlarına müasir mədəniyyət və incəsənətdə süni intellektin rolu və ondan istifadə imkanları; musiqi, təsviri incəsənət, kino və səsləndirmə, teatr və bədiiləşdirmə sahələrində süni intellekt texnologiyaları və s. kimi mövzular üzrə mühazirə və məşğələlərin təşkilinin nəzərdə tutulduğunu qeyd etdi.

Daha sonra elmi şuraların birgə iclası interaktiv dialoq formatında davam etdi. Kinoşünaslıq və ekran dramaturgiyası kafedrasının müdiri, Əməkdar incəsənət xadimi, professor Əli Əmirli, sənətşünaslıq üzrə elmlər doktoru, professor Məryəm Əlizadə, Musiqili teatr aktyoru kafedrasının müdiri, Əməkdar artist, dosent Azad Şükürov, Keyfiyyət təminatı və strateji planlama departamentinin müdir müavini, Teatrşünaslıq kafedrasının dosenti Elçin Cəfərov, rektorun tədrisdə innovasiyalar üzrə müşaviri, Əməkdar incəsənət xadimi, professor Validə Məmmədova, Xalq artisti, professor Zamiq Əliyev təqdim edilən mövzulara öz münasibətlərini, həmçinin proqramın gələcəkdə daha da təkmilləşdirilməsinə dair arzularını bildirdilər.

Müzakirələr zamanı iki qurum arasında mədəniyyət, incəsənət və süni intellekt məsələlərinə həsr olunmuş birgə tədqiqatların aparılması, layihələrin həyata keçirilməsi, elmi konfrans və seminarların təşkilinə dair təkliflər də irəli sürüldü.

# Şərqşünaslıq İnstitutunda Rusiyada İslam tarixi barədə mühazirə

**Moskva İslam İnstitutunun rektoru və Rusiya Müsəlmanları Ruhani Məclisinin müftisinin birinci müavini ilahiyyat elmləri doktoru, professor Damir Muhetdinov, Rusiya Müsəlmanları Ruhani Məclisinin müftisinin elm üzrə müavini Renat İslyamov və islamsng.com saytının baş redaktoru Səfa Kərimov AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda olublar.**



Rusiyalı nümayəndələr əvvəlcə AMEA-nın vitse-prezidenti v.i.e. Şərqşünaslıq İnstitutunun direktoru, akademik Gövhər Baxşəliyeva ilə görüşüblər. G.Baxşəliyeva rusiyalı qonaqlara Şərqşünaslıq İnstitutunda İslam dini ilə bağlı aparılan tədqiqatlar, nəşr olunan monoqrafiya və kitablar barədə məlumat verib.

Professor D.Muhetdinov Moskva Şərqşünaslıq İnstitutunda islamşünaslıq sahəsində görülən işlərdən məmnunluğunu bildirib, rəhbərlik etdiyi müəssisədə aparılan tədris prosesi və elmi araşdırmalar barədə danışıb.

Şərqşünaslıq İnstitutunda keçirilən görüş Azərbaycan və Rusiya alimləri arasında ünsiyyət üçün şərait yaradılması, iki ölkənin elmi və ali təhsil müəssisələri arasında elmi mübadilənin və əməkdaşlığın inkişaf etdirilməsi, birgə layihələrin və elmi tədbirlərin həyata keçirilməsi baxımından da praktik əhəmiyyət kəsb edir. Görüşdə qarşılıqlı elmi əməkdaşlığın perspektivləri barədə aparılan müzakirələr də bu istiqamətdə atılan əhəmiyyətli addımdır.

Görüşdə akademik G.Baxşəliyeva rusiyalı qonaqlara Şərqşünaslıq İnstitutunda nəşr olunmuş kitabları hədiyyə edib. Professor D.Muhetdinov da öz növbəsində müəllifi olduğu "Rusiyada İslam tarixi" kitabını akademik G.Baxşəliyevaya təqdim edib.

Rusiyalı nümayəndələr daha sonra Şərqşünaslıq İnstitutunun kollektivi ilə görüşüblər. Qonaqları kollektivə təqdim edən akademik Gövhər Baxşəliyeva Moskva İslam İnstitutu ilə elmi əməkdaşlığın əhəmiyyətini qeyd edərək, bu istiqamətdə atılan addımlardan biri kimi Rusiyanın bu təhsil müəssisəsinin rəhbərinin Şərqşünaslıq İnstitutunun əməkdaşları üçün oxuyacağı mühazirənin olduğunu bildirib.

Professor D.Muhetdinov "Rusiyada İslam tarixi" mövzusunda mühazirə oxuyub.

Rus dövlətçiliyinin yaradılması və inkişafının vahid hissəsi kimi İslam tarixinin öyrənilməsində professor D.Muhetdinovun təklif etdiyi metodologiya akademik elm nümayəndələrinin böyük marağına səbəb olur. Açıq mühazirə zamanı professor D.Muhetdinov Rusiyada İslamın yayılmasının ilk dövrlərindən bu günə kimi tarixi prosesində baş verən hadisələri qeyd etməklə bu prosesin əsas amillərini diqqətə çatdırıb. O, Rusiyada İslamın yayılmasının ölkənin müxtəlif regionlarında necə baş verməsi barədə danışıb. Mühazirəçi konkret misallardan və məntiqi nəticələrdən istifadə edərək, Rusiyada İslam tarixi ilə Rusiya dövlətçiliyi arasında qırılmaz əlaqəni, digər ölkələrdə, xüsusən coğrafi və tarixi baxımdan Rusiyaya yaxın olan ölkələrdə vahid inkişaf prosesinin ümumiliyini inandırıcı şəkildə əsaslandırıb.

# Azərbaycan elminin inkişafında əvəzsiz xidmətləri olan böyük alim

**Azərbaycanda geologiya elminin inkişafında mühüm xidmətləri olan görkəmli alim və ictimai xadim, böyük elm təşkilatçısı, Əməkdar elm xadimi, Azərbaycan Dövlət mükafatı laureatı, "Şöhrət", "Şərəf" və "İstiqlal" ordenli akademik Akif Əlizadənin ötən ay 90 yaşı tamam oldu.**

**Yubileyi ərəfəsində görkəmli alimlə müsahibəni təqdim edirik:**

**- Hörmətli, Akif müəllim, əvvəlcə Sizi yubileyiniz münasibətilə təbrik edir, Sizə uzun ömür, möhkəm cansağlığı, Azərbaycan elminin inkişafı yolundakı fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayırıq.**

Söhbətimizin əvvəlində istərdik ki, Azərbaycan geologiya elminin təşkili və inkişafı sahəsində göstərdiyiniz xidmətlərdən, apardığınız tədqiqatların əsas istiqamətlərindən bəhs edəsiniz.

**- Diqqətinizə görə çox sağ olun, minnətdaram!**

Mən əmək fəaliyyətimə "Suraxanıneft" mədənində quyuların tədqiqi üzrə texnik vəzifəsindən başlamışam. 1957-ci ildə AEA-nın Geologiya (indiki Geologiya və Geofizika) İnstitutuna böyük laborant vəzifəsinə işə qəbul olunmuşam. O vaxtdan etibarən, həyatımı bu institutla bağlamışam.

Respublikamızın dövlət müstəqilliyinin bərpasından sonra ötən 30 ildən artıq müddətdə Azərbaycan geologiya elminin keçdiyi yol kifayət qədər çətin və mürəkkəb olmuşdur. Geologiya və Geofizika İnstitutunun kollektivi tərəfindən 30 il ərzində böyük əhəmiyyətə malik elmi-tədqiqat işləri aparılmışdır.

İnstitut özünün gələcək fəaliyyət istiqamətini - dünya elminə sürətli inteqrasiyanı, qabaqcıl texnologiya və metodlara yiyələnməyi, kadr hazırlığı və təkmilləşdirilməsini əsas tutaraq, düzgün müəyyən etdi ki, bu yol həqiqətən, yeganə strateji yol kimi qəbul edilə bilər. XX əsrin 90-cı illərinin əvvəllərində məhz belə yanaşmanın həyata keçirilməsinə nail olaraq, biz düzgün inkişaf yolu tutduq.

Fəxrlə qeyd edə bilərik ki, Azərbaycanın qeoloq-alimləri müasir geoloji-geofiziki elmi tədqiqatlar nəticəsində yeni alınmış materialları yüksək səviyyədə interpretasiya edərək, Qafqaz geologiyasının dərk olunmasına yeni töhfələr vermişlər. Eyni zamanda, təvazökarlıqdan bir qədər uzaq olsa da, qeyd edilməlidir ki, Geologiya və Geofizika İnstitutunun elm aləmində nüfuzu bu gün təkcə milli deyil, regional uğurlarla da təsdiqlənmişdir. Bir sıra istiqamətlərdə isə, institut hətta regional sərhədləri də aşa bilmişdir.

Hazırda institutun simasını - dünya palçıq vulkanlarının püskürmə mexanizminin və məkan-zaman baxımından paylanma qanunauyğunluqlarının analizi, uzunmüddətli vizual, aerokosmik, geofiziki sahələrin instrumental və telemetrik monitorinqinə, vulkanların püskürmə məhsullarının dərin izotop-geokimyəvi öyrənilməsinə söykənən əsaslı tədqiqatlar əks etdirir.

Mənim elmi maraq dairəm isə əsas etibarilə təbaşir çöküntülərinin regional stratiqrafiyasını və paleontolo-giyasını əhatə edir. Rəhbərliyim və iştirakımla Azərbaycanın təbaşir çöküntülərinin stratiqrafik sxemləri işlənib hazırlanmış, geoloji proseslər, çökmə və vulkanogen-çökmə formasiyaları, təbaşir dövründə faunanın inkişafı və s. məsələlərə dair müasir baxışları əks etdirən zəngin paleontoloji-stratiqrafik materiallar araşdırılmışdır.



Mən həm də regional geologiya, tektonika, filiz ge-o-logiyası, hidro-geologiya, geoekologiya və digər elm sahələrinə aid məsələlərlə hər zaman yaxından maraqlanmışam. Müəyyən vaxtlarda Azərbaycan Dövlət Neft və Sənaye Universitetində, Bakı Dövlət Universitetində mühazirələr oxumuşam. Respublika və xarici elmi nəşrlərdə çap olunmuş 250-dən çox elmi əsərin, 17 monoqrafiya və kitabın, 6 müəllifik şəhadətnaməsinin müəllifiyəm. Baş redaktoru və həmmüəllifi olduğum unikal fundamental əsərlər - 8 cildli "Azərbaycanın geologiyası" (rus dilində) və 3 cildli "Azərbaycanın geologiyası" (Azərbaycan dilində) hazırlanmış və nəşr edilmişdir. İlk innovasiya layihəsi - "Azərbaycan ərazisinin və Xəzər dənizinin Azərbaycan sektorunun litoloji-paleocoğrafi xəritələri Atlası"nın müəlliflərindən biriyəm.

Bütün fəaliyyətim dövründə elm və təhsilin inteqrasiyası çərçivəsində yüksəkixtisaslı elmi kadr potensialının hazırlanması, elmin populyarlaşdırılması, təbliği və təşviqi məsələlərini diqqətdə saxlamışam.

1986-cı ildə respublikamızda ilk dəfə Akademik İnstitutu (Geologiya İnstitutu) və ali təhsil müəssisəsini (AZNEFTKİMYA İnstitutu - hazırda ADNSU) özündə birləşdirən Tədris-Elmi Mərkəzin yaradılmasına təşəbbüs göstərərək buna nail olmuşam.

Azərbaycan Geoloqlarının Milli Komitəsinin prezidenti, Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının, Azərbaycan Elmində İslahataparma üzrə Dövlət Komissiyasının, Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun Himayədarlar Şurasının və SOCAR-ın Elm Fondunun üzvü kimi də çoxşaxəli fəaliyyət göstərmişəm.

**- Son illər elmi fəaliyyətinizdə yeni prioritet elmi istiqamət olan geoekologiyaya böyük önəm verir, bu istiqamətin dərindən tədqiq olunması istiqamətində səylə çalışırsınız. Geoekologiya istiqamətinin əsas özəllikləri haqqında məlumat verə bilərsinizmi?**

- Bəli, vurğuladığınız kimi, bu gün Azərbaycan geologiya və geofizika elminin müəyyən istiqamətlərində müsbət tendensiyalar müşaiyət edilir. Bunlardan biri də yeni geoinformasiya əsasında enerji, xammal və geoekoloji təhlükəsizliyi təmin edən geoekoloji tədqiqatlardır. Artıq bu istiqamət üzrə bir sıra mühüm elmi nəticələr alınmış, nüfuzlu jurnallarda elmi məqalələr dərc edilmişdir.

Geoekologiya elmi yerin daxilində və xaricində baş verən proseslərlə canlı aləm arasında olan əlaqəni canlı aləmin yaşaması üçün əlverişli mühitin yaradılması nöqteyi-nəzərindən öyrənir.

Geologiya və Geofizika İnstitutunun Geoekologiya şöbəsində respublika ərazisində təbii və antropogen amillərin təsiri ilə Yer qabığında baş verən dəyişikliklərin zaman-məkan daxilində sistemli tədqiqi və modelləşdirilməsi, filiz və qeyri-filiz faydalı qazıntıların kəşfiyyatı və istismarı ilə əlaqəli geoekoloji proseslərin tədqiqatı və proqnozlaşdırılması, palçıq vulkanizminin geosferlərə təsirinin qiymətləndirilməsi, geoekoloji problemlərin azaldılması və aradan qaldırılması üzrə tədbirlərin işlənilməsi və digər istiqamətlərdə tədqiqatlar aparılır, mühüm elmi nəticələr əldə olunur. Biz bu aktual elmi istiqaməti daha da inkişaf etdirmək niyyətindəyik. Düşünürəm ki, geoekologiyaya dair Dövlət Proqramının hazırlanmasına çox böyük ehtiyac var.

**- Azərbaycan elmini dəfələrlə ABŞ, Fransa, İngiltərə, Türkiyə, Koreya və digər xarici ölkələrdə təmsil etmiş alim kimi, Azərbaycan elminin gələcəyini, AMEA-da aparılan tədqiqatların aktuallığını necə qiymətləndirirsiniz?**

- Kompleks yanaşsaq, elmin inkişafı son onilliklərdə formalaşmış müəyyən tendensiyalarla səciyyələnir. Bu gün qloballaşmanın mühüm hissəsi - dünyəvi elmi-texniki məkanın formalaşdırılması, informasiya-kommunikasiya texnologiyalarının yaradılması, enerjiyə qənaət, alternativ enerji mənbələrinin yaradılması, intellektual mülkiyyət hüquqlarının qorunma mexanizminin işlənilməsidir. Hazırda alimlərin və elmi təşkilatların fəaliyyəti daha yüksək dərəcədə ümumdünyəvi təcrübəyə söykənir. Alimlər və mütəxəssislər arasında beynəlxalq mübadilələr sürətlə genişlənməkdədir. Bu baxımdan, hər bir elm sahəsinin inkişafı üçün kompüter və informasiya texnologiyalarının geniş tətbiqi, sinergetik yanaşma və qlobal təbii hadisələrin dərk edilməsi son dərəcə vacibdir.

Düşünürəm ki, strateji elmi istiqamətlər - məsələn, fizika, kimya, riyaziyyat, yer elmləri və s. üzrə baza institutlarını saxlamaq şərtilə yeni texnologiya və informasiyalar əsasında, müasir elmin təşkili və innovasiya siyasətinin nailiyyətlərini özündə əks etdirən, müasir prioritetlərə cavab verən, yeni elm-təhsil mərkəzlərin yaradılması olduqca vacibdir.

Bununla yanaşı, son illər internetdəki informasiya resurslarının təhlili göstərir ki, ümumiyyətlə, Azərbaycan elmində hələ də mürəkkəb vəziyyətin mövcud olmasına baxmayaraq, alimlərimiz fəaliyyətlərini davam etdirir və yeni elmi nəticələrə nail olurlar.

Məlum olduğu kimi, ölkə Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları ilə Elmin İnkişafı üzrə Milli Strategiya və Dövlət Proqramları qəbul edilmiş, daha sonra bu proqramların reallaşdırılması kontekstində Elmin İnkişafı Fondu yaradılmışdır. Bu mühüm sənədlər respublikada elmin yenidən təşkilatlanması və onun beynəlxalq elm aləminə inteqrasiyası məsələlərinin həlli üçün real imkanlar yaradır.

**- 2013-cü ildə Azərbaycan aliminə verilən ən yüksək və ən layiqli qiymət olan AMEA prezidenti vəzifəsinə seçilmiş və uzun illər Akademiyaya rəhbərlik etmisiniz. AMEA prezidenti seçildikdən sonra elmimizin bütün sahələrində yeniliklər tətbiq olunmuş, özündə çoxsaylı islahatları ehtiva edən canlanma müşahidə olunmuşdur. Bu yeniliklər hansı istiqamətləri əhatə edirdi?**

- Bəli, qeyd etdiyiniz dövr həyatımın ən çətin, şərəfli və məsuliyyətli dövrlərindən olub. AMEA-nın prezidenti vəzifəsini icra etdiyim dövrdə respublikada ilk dəfə həyata keçirilən tədbirlər sırasında elmin təbliğinin effektiv forması olan Bakı Elm Festivalı, eyni zamanda Azərbaycan alimlərinin və Azərbaycanın gənc alimlərinin I Qurultayı xüsusi yer tutur.

Daha sonra Azərbaycanın görkəmli alimlərinin adına AMEA-nın mükafatlarının, milli və beynəlxalq səviyyədə mühüm nailiyyətlər əldə etmiş Azərbaycan alimlərinin əməyinin qiymətləndirilməsi məqsədilə "AMEA-nın professoru" elmi adının təsis edilməsi, AMEA Yüksək Texnologiyalar Parkının yaradılması və s. həmin illərdə həyata keçirilmiş mühüm və günün tələblərinə cavab verən tədbirlərdəndir.

Eyni zamanda, biz elmlə təhsilin inteqrasiyası, elmi kadr potensialının inkişafı, gənclərin elmə marağının artırılması məqsədilə Azərbaycan Milli Elmlər Akademiyasında magistratura pilləsini yaratdıq.

Həmin illərdə AMEA-da çox ciddi islahatlar aparılmış, bir sıra fundamental təşəbbüslər icra edilmişdir. Dünya elminə sürətlə inteqrasiya, qabaqcıl metodlara və texnologiyalara yiyələnmək və zamanın tələblərinə uyğun gənc elmi kadrların hazırlanması məsələləri hər zaman diqqət mərkəzimizdə olmuşdur.

Bundan başqa, AMEA-da intellektual potensialın inkişafı, alimlərimizin daha geniş miqyasda elmi və elmi-təşkilati fəaliyyətə cəlb edilməsi istiqamətində kompleks tədbirlər həyata keçirmişik. Akademiya əməkdaşlarının maddi rifahının, iş və məişət şəraitinin yaxşılaşdırılması, mənzil təminatı, elmi tədqiqat işinə marağının artırılması məqsədilə görülən mühüm işlər də bu qəbildəndir.

**- Elmi kadr potensialının inkişafını sürətləndirmək və gənclərin elmə marağını artırmaq üçün ölkəmizdə hansı işlər görülməlidir?**

- Elmin ictimaiyyət arasında, sosial-ictimai sferada nüfuzunun artırılması və populyarlaşdırılması ilə bağlı ciddi tədbirlər həyata keçirilməlidir. Həm müvafiq dövlət qurumları, həm də elmi müəssisələr, alim və ziyalılar elmi nailiyyətlərin təbliğinə, elmi təfəkkürün inkişaf etdirilməsinə, eləcə də gənclərin elmə cəlb olunmasına diqqət ayırmalıdırlar.

Elmin davamlı inkişafının təmini, elmi fəaliyyətin maliyyələşdirilmə mexanizmlərinin dünya standartlarına uyğunlaşdırılması, ictimai həyatın bütün sferalarında elmi potensialdan səmərəli istifadənin təmin edilməsi, o cümlədən elmin maddi-texniki bazasının modernləşdirilməsi hazırda elm sahəsində dövlət siyasətinin əsas prioritetlərindəndir. Bu gün Azərbaycanda elm siyasətinin müasir tələblərə uyğun həyata keçirilməsi üçün kompleks islahatlar aparılır, müvafiq qanun layihələri qəbul olunur. İnanıram ki, həyata keçirilən bütün bu tədbirlər yaxın zamanda öz bəhrəsini verəcəkdir.

**- Akif müəllim, sizin ədəbiyyata, şeirə, sənətə olan marağınız da hər kəsə məlumdur. Bu həvəs haradan qaynaqlanır?**

- Mənim gənc yaşlarımdan etibarən yazdığım şeirlərin yer aldığı kitabçam var. Burada çoxsaylı şeirlər yer alıb. Mən onların əksəriyyətini əzbər bilirəm və yeri gələndə şeir səsləndirməyi sevirəm.

Ümumiyyətlə, şeir, poeziya böyük bir elmdir, dərin fəlsəfədir. İnsanın fərdi olaraq inkişafında, şəxsiyyətinin formalaşmasında poeziya, kitablar, şeir, poema və hekayələr böyük rol oynayır. Çünki onların hər biri tərbiyəvi xarakter daşıyır, cəmiyyətin inkişaf yollarını müəyyənləşdirir, oxucunun dünyagörüşünü, mənəviyyatını, mədəniyyətini formalaşdırır.

Rus dilində təhsil almağıma baxmayaraq, doğma ana dilimdə şeirlər oxuyuram. Azərbaycan dilini gənclik illərimdə Azərbaycan ədəbiyyatını, poeziya nümunələrini oxuyarkən öyrənmişəm. Xalq şairi Səməd Vurğunun "Vaqif" dramı, eləcə də Hüseyn Cavidin məşhur pyesləri əsasında nümayiş olunan tamaşaları səhnələrdən izləmişəm. Bunların hər biri mənim şəxsi inkişafımda mühüm rol oynayıb. Bəlkə də gənclik dövründə ədəbiyyatın, poeziyanın təsirini daxilən o qədər də hiss etmirsən, lakin beyin bütün məlumatları qəbul edir və yadda saxlayır.

Səməd Vurğunun "Vaqif" dramını dəfələrlə oxumuşam. Vaqiflə Qacarın deyişməsini əzbər bilirəm. Rus məktəbində təhsil alsam da, gənclik illərində Akademik Milli Dram Teatrına gedib "Vaqif" tamaşasını böyük həvəslə izləyirdim. Eyni zamanda, Səməd Vurğunun rus dilində olan pyesləri, Türk dünyasının dahi şairi Tofiq Fikrətin yaradıcılığı ilə yaxından tanışam.

* * *

Müsahibənin sonunda akademik Akif Əlizadə Xalq şairi Səməd Vurğunun "Mən tələsmirəm..." şeirindən bir bənd səsləndirdi:

*Hər gülə, çiçəyə salam verməsəm,*
*Xoş üz göstərməsəm, xoş üz görməsəm,*
*Nanələr, reyhanlar inciyər məndən,*
*Güllərin yarpağı tökülər dən-dən...*

**Müsahibəni apardı:**
**Nərgiz QƏHRƏMANOVA**
**AMEA Rəyasət Heyəti aparatının İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinin Elektron informasiya sektorunun müdiri**

# Tarixi torpaqlarımızda yenidən bayram tonqalları yandırılır

**Həmrəyliyi, sülhü, tolerantlığı tərənnüm edən Novruz bayramı Azərbaycan xalqının zəngin maddi və mənəvi dəyərlərinin mühüm bir hissəsini özündə ehtiva edən böyük mədəniyyət hadisəsidir.**



Milli adət-ənənələri özündə əks etdirən Novruz bayramı qədim zamanlardan bəri qeyd olunur. Novruz ərəfəsi insanlar ev təmizliyinə başlayır, evlərdə bayram şirniyyatları bişir, köhnə olan əşyalar atılır, onları yenisi əvəz edir, hər şey təzələnir. Axı yeni ilə qədəm qoyuruq. Eyni zamanda bayramda böyüklərə baş çəkilir, müqəddəs yerlər ziyarət olunur, kasıblara yardım edilir, küslülər barışır. Novruzda səməni göyərtmək təbiəti canlandırmaq, ona təsir etmək kimi anlaşılır.

Ulu Öndər Heydər Əliyev 2000-ci ilin 21 mart tarixində Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edərkən demişdir: "Novruz bayramının bizə bəxş etdiyi ən gözəl nemət ondan ibarətdir ki, qədim zamanlardan bu bayramda insanlar kin-küdurəti unudur, küsülülər barışır, ziddiyyətlər aradan götürülür. Deməli, bu, dostluq, həmrəylik, yüksək mənəviyyat bayramıdır".

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Ümummilli Liderin vəsiyyətini və Azərbaycan xalqının arzularını reallaşdırdı. 2020-ci il dövlətçilik tariximizə qızıl hərflərlə yazıldı. Şanlı Ordumuz işğalçı Ermənistan üzərində möhtəşəm Qələbə qazanaraq xalqımızın 30 illik həsrətinə son qoydu, bizi tarixi yurd yerlərimizə qovuşdurdu. Tarixi Qələbənin zirvəsi Azərbaycanın dilbər guşəsi, mədəniyyət ocağı, milli qeyrət, milli mənlik simvolu olan Şuşa şəhərinin azad edilməsi oldu. 2021-ci il martın 20-də Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşada Cıdır düzündə bayram tonqalı alovlandırdılar. O əziz, müqəddəs gündə ölkəmizin başçısı demişdi: "Biz bu il Novruz bayramını Şuşada, Cıdır düzündə qeyd edirik. Bu, tarixi hadisədir. 2004-cü ildən başlayaraq, hər il mən Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edərkən deyirdim ki, biz öz doğma torpaqlarımıza qayıdacağıq. Deyirdim ki, biz ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyik. Deyirdim ki, biz Novruz bayramını torpaqlarımız işğaldan azad olunandan sonra Qarabağda qeyd edəcəyik və bu gün gəldi. Bu gün biz Novruz bayramını qədim şəhərimizdə, Azərbaycanın mədəniyyət paytaxtı Şuşada qeyd edirik. Bu, tarixi hadisədir. Bu, böyük xoşbəxtlikdir. Allah Azərbaycan xalqının dualarını eşitdi. Hər il Novruz bayramı ərəfəsində hamımız yəqin ki, fikirləşirdik, bir-birimizə deyirdik, inşallah, gələn il Novruz bayramını Qarabağda qeyd edək, gələn il Novruz bayramını Şuşada qeyd edək və bu gün gəldi. 28 ildən sonra biz Şuşaya qayıtdıq. Novruz bayramını Cıdır düzündə qeyd edirik, tarixi ədaləti bərpa etmişik".

Xalqımız bu il də öz milli bayramını, ən ali bəşəri dəyərləri özündə cəmləşdirən Novruz bayramını Xankəndidə, Xocalıda qeyd edəcək. Bu tarixi torpaqlarımızda yenidən bayram tonqalları yandırılacaq, ilaxır çərşənbəsi xoş əhval-ruhiyyə ilə qeyd ediləcək. Hər il Novruz bayramı münasibətilə xalqımıza təbrik ünvanlayan dövlət başçısı vətəndaşlarımıza xoş arzu və niyyətlərini bildirəcək.

Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın böyük səyi nəticəsində Novruz bayramı UNESCO tərəfindən Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilib. Bu qərar 28 sentyabr-2 oktyabr 2009-cu il tarixlərində Birləşmiş Ərəb Əmirliklərinin Abu-Dabi şəhərində keçirilmiş UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin 4-cü sessiyasında qəbul olunub.

Novruz əsrlərin dərinliyindən gəlib bizim günlərə çıxmış ən şən və gözəl bayramlardan biridir. Novruza Bozqurd, Çağan, Ergenekon, Nevruz, Sultan Nevruz, Mart Doqquzu, Novruz və s. də deyilmişdir. Novruz haqqında məlumatlara Biruni Əbu Reyhanın "Asarul Baqiye", Mahmud Kaşğarinin "Divanü Lüğat-it Türk", Balasaqunlu Yusif Has Hacibin "Kutadqu bilig", Ömər Xəyyamın "Novruznamə", Nizamülmülkün "Siyasətnamə", Nizami Gəncəvinin "İsgəndərnamə" və başqa əsərlərində rast gəlirik. Novruz anlayışı bəzi deyiliş fərqlərilə bir çox türk xalqlarının dillərində işlənməkdədir. Bütövlükdə bu bayram təkcə türk xalqlarının deyil, ümumilikdə bəşəriyyətin mənəvi dəyəri hesab edilir. Kökləri İslamdan əvvəlki tarixi dövrə gedib çıxan Novruz bayramı Azərbaycanla yanaşı, bütün Şərqdə "Beynəlxalq Novruz Günü" kimi qeyd olunur.

**ELM**

## Seysmoloji Xidmət Mərkəzinin palçıq vulkanlarının seysmik monitorinq şəbəkəsi "Məlikçobanlı" palçıq vulkanının püskürməsini qeydə alıb

**AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin (RSXM) palçıq vulkanlarının seysmik monitorinq şəbəkəsi 2024-cü il martın 8-də Şamaxı rayonunun Məlikçobanlı kəndində "Məlikçobanlı" palçıq vulkanının növbəti - 5-ci püskürməsini qeydə alıb. Püskürmə yerli vaxtla saat 18:09-da başlayıb və 3 dəq davam edib. Palçıq vulkanının zəif və səthi püskürməsi səbəbindən püskürmə iki -"Zərnava" və "Qobustan" rəqəmsal stansiyasında qeydə alınıb. Yer qatından çıxan palçıq 1 hektar əraziyə yayılıb.**







Xatırladaq ki, bu vulkanın püskürməsi əvvəlki 1926, 1967, 1977, 2019-cu illərdə də müşahidə olunub. Bu vulkan həm seysmik və tektonik cəhətdən ən aktiv zonalardan birində yerləşir və buna görə də burada təkrar passiv püskürmələr müşahidə oluna bilər. Bir neçə gün öncə Şamaxıda zəif yeraltı təkanlar qeydə alınıb. Tektonik hərəkətlər prosesində Yer qabığında sıxılma və gərilmə gərginliklərin variasiyaları müşahidə olunur ki, bu da palçıq vulkanlarının aktivləşməsinə təsir göstərə bilər. Martın 8-də baş vermiş püskürmə zəif olaraq xarakterizə olunur və heç bir fəlakətli nəticələrə səbəb ola bilməz.

Qeyd edək ki, 2019-cu il 5 fevral tarixində İsmayıllı rayonunda maqnitudası ml=5.2 olan güclü hiss olunan zəlzələ baş verib. Həmin zəlzələdən sonra Şamaxı-İsmayıllı ərazisində 10 gün ərzində maqnitudası ml=3.0 olan afterşoklar qeydə alınıb. Həmin zəlzələdən sonra Şamaxı rayonu, Quşçu kəndi ərazisində yerləşən "Quşçu" palçıq vulkanının aktivləşməsi qeydə alınıb. 2019-cu il 27 may tarixində yerli vaxtla 16:33-də Şamaxı rayonunda yerləşən Məlikçobanlı palçıq vulkanı püskürüb. Püskürmə nəticəsində kraterin hündürlüyü 10-15 metrə qədər qalxıb və yer qatından çıxan palçıq 2 hektar əraziyə yayılıb. Vulkanın təsirindən əraziyə yaxın torpaqlarda qabarma və çatlar əmələ gəlib. Evlərə və təsərrüfata ziyan dəyməyib.

Rəqəmsal stansiyaların məlumatları əsasında Məlikçobanlı palçıq vulkanlarının ocağının dərinliyi 5 km, püskürməyin davamlılığı 1 dəq, ayrılan enerjisi isə 3.4*106 Coul təyin edilib.

## Azərbaycan-Pakistan əlaqələri tarixin sınağında



**AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunda "23 mart - Pakistan günü"nə həsr olunmuş "Azərbaycan-Pakistan əlaqələri tarixin sınağında" mövzusunda dəyirmi masa keçirilib.**

Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru f.e.d., professor İlham Məmmədzadə çıxış edərək institutun alimlərinin Pakistanla elmi əlaqələrin genişlənməsinə böyük əhəmiyyət verdiyini bildirib. İlham Məmmədzadə Azərbaycan alimlərinin Pakistanın elmi cəmiyyəti ilə qurulan əlaqələrindən, elmi jurnalları ilə əməkdaşlıqlarından və birgə elmi-tədqiqat layihələrindən danışıb.

Professor, həmçinin "hər iki dövlətin elm və təhsil sahələrində də əməkdaşlıq imkanlarının reallaşması əlaqələrin inkişaf prosesini daha da gücləndirən amillərdən biridir" - deyə qeyd edib.

Hər iki ölkənin çoxşaxəli münasibətlərindən söz açan institutun elmi işlər üzrə direktor müavini tarix elmləri doktoru Azərbaycanın Pakistanda Fövqəladə və səlahiyyətli səfiri olmuş Eynulla Mədətli "Azərbaycan və Pakistanın tarixi dövlətçilik ənənələri və qarşılıqlı münasibətlər" mövzusunda çıxış edərək, Azərbaycan-Pakistan arasında tarixən iki ölkənin bir-birinə sıx dostluq əlaqələri ilə bağlı olduğunu, bu əlaqələrin daha da güclənməsində, iki ölkə arasında münasibətlərin inkişafında, bu gün də siyasi, iqtisadi, mədəni, hərbi, ticarət və digər sahələrdə yüksələn xətlə davam etdiyini vurğulayaraq beynəlxalq arenada da, ölkələrimizin eyni maraqlardan çıxış edərək bir-birini dəstəklədiyini bildirib.

O, Azərbaycanla Pakistan İslam Respublikası arasında bərqərar olmuş və get-gedə güclənən qardaşlıq əlaqələrinin Pakistanla münasibətlərə dair Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasətin Prezident İlham Əliyev tərəfindən ardıcıl şəkildə və uğurla həyata keçirilməsinin nəticəsi kimi qiymətləndirib.

Tədbirdə Pakistan İslam Respublikasının Azərbaycandakı Fövqəladə və səlahiyyətli səfiri Bilal Hayi institutun rəhbərliyinə dəvət üçün öz təşəkkürünü bildirərək, gələn qonaqları salamlayıb, hər kəsi Ramazan ayının başlanması münasibətilə təbrik edib.

Səfir "Pakistan-Azərbaycan: diplomatik əlaqələrdən dostluq və qardaşlıq münasibətlərinə" mövzusunda çıxış edərək, Pakistan-Azərbaycan münasibətlərinin həlli ötən əsrlərdən inkişaf etməyə başladığını, tarixi əsaslara söykənən bu əlaqələrin son 30 il ərzində böyük inkişaf mərhələsindən keçdiyini və bundan məmnunluğunu bildirib. O, iki ölkənin müasir dövrdə üzləşdiyi geosiyasi problemlərdən, Azərbaycanın 44 günlük Vətən müharibəsindən və postmünaqişə dövründən ətraflı bəhs edib. Pakistanın Ermənistan-Azərbaycan münaqişəsində Ermənistanın işğalçı siyasətini hər zaman ittiham etdiyini və Azərbaycanın ərazi bütövlüyünü hər zaman diqqətə çatdırıb. Vurğulayıb ki, Azərbaycanla qardaşlıq münasibətlərinə görə ölkəsi indiyədək Ermənistanla heç bir əlaqə qurmayıb.

Səfir bundan sonra da iki dost ölkə arasında bütün əlaqələrin gələcəkdə də inkişaf edəcəyinə inamlı olduğunu bildirib.

Sonda f.e.d. prof., siyasi-analitik Qabil Hüseynli "Azərbaycan-Pakistan siyasi-hərbi əlaqələri: hazırda və perspektivdə", f.e.d. prof. Rəbiyyət Aslanova, f.e.d. prof. Adil Əsədov, f.e.d. prof. Rəna Mirzəzadə Azərbaycan-Pakistan münasibətləri ilə bağlı çıxış edərək öz fikirlərini bölüşüblər.

Dəyirmi masa sual və müzakirələrlə başa çatıb.



**Azərbaycan iqtisad elminin görkəmli nümayəndələrindən biri, böyük vətəndaş alim və şəxsiyyət olan akademik Asəf Abbasqulu oğlu Nadirov yaşasaydı indi onun 95 yaşı tamam olacaqdı. O, 1929-cu il mart ayının 13-də qədim və zəngin tarixi, mədəniyyət və çoxəsirlik dövlətçilik ənənəsi olan Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Cəlilkənd kəndində Naxçıvan mahalında öz pak əməlləri, vətənpərvərliyi və yüksək insani keyfiyyətləri ilə hamının dərin hörmətini qazanmış, el ağsaqqalı Abbasqulu kişinin ailəsində dünyaya göz açmışdır. Belə bir ailədə doğulub boya-başa çatmış Asəf Nadirov atası Abbasqulu kişinin adına layiq böyümüş, öz ağlı, zəkası və zəhmətsevərliyi ilə Azərbaycan Elmlər Akademiyasında çalışdığı 62 il ərzində pillə-pillə yüksələrək, kiçik elmi işçi vəzifəsindən Azərbaycan Elmlər Akademiyasının akademik-katibi vəzifəsinə, coğrafiya elmləri namizədliyindən iqtisad elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü, əməkdar elm xadimi kimi yüksək vəzifə, elmi adlar və rütbələrə yiyələnmişdir.**

# Azərbaycan iqtisad elminin görkəmli nümayəndəsi

Professor Asəf Nadirov bütün şüurlu həyatını doğma Azərbaycanımızın elminə və təhsilinin inkişafına sərf etmişdir. O, 1936-cı ildə doğma Yenkicə kəndindəki orta məktəbə daxil olmuş və 1946-cı ildə oranı bitirib təhsilini davam etdirmək üçün Bakı şəhərinə gəlib, Azərbaycan Dövlət Universitetinin geoloji-coğrafiya fakültəsinə qəbul olmuşdur. 1951-ci ildə universiteti əla qiymətlərlə bitirən Asəf Nadirovu rəhbərlik Coğrafiya kafedrasında assistent vəzifəsində saxlamışdı. Ancaq az sonra o, gənc mütəxəssis kimi diqqəti cəlb etmiş və Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti yanında Respublika inzibati-ərazi bölgüsü üzrə məsləhətçi vəzifəsinə irəli çəkilmişdir. İki ilə yaxın bu vəzifədə çalışdıqdan sonra o, 1952-ci ildə Azərbaycan SSR Elmlər Akademiyası Coğrafiya İnstitutunun aspiranturasına daxil olmuş və 1953-cü ildə təhsilini davam etdirmək üçün Moskva şəhərinə - SSRİ Elmlər Akademiyası Coğrafiya İnstitutuna ezam olunmuşdur. Asəf Nadirov görkəmli alimlərin çalışdığı bu elm ocağında coğrafiya elminin sirlərinə yiyələnmiş və 1956-cı ildə həmin İnstitutda "Naxçıvan MSSR: iqtisadi-coğrafi səciyyəsi" mövzusunda namizədlik dissertasiyasını müdafiə edib 27 yaşında coğrafiya elmləri namizədi elmi dərəcəsi almışdır.

Asəf Nadirovun elmi və yaradıcılıq fəaliyyətini bu cür təsnifləşdirmək mümkündür. O, 1958-ci ilin ikinci yarısından 1964-cü ilədək İqtisadiyyat İnstitutunun "Sosialist sənayesinin yerləşdirilməsi" şöbəsinin müdiri,1964-1981-ci illərdə (17 il) institutun elmi işlər üzrə direktor müavini,1981-1997-ci illərdə (17 il) Azərbaycan Elmlər Akademiyası Rəyasət Heyətinin üzvü və baş elmi katibi, 1997-ci ildən ömrünün sonunadək isə AMEA-nın müşaviri vəzifələrində çalışıb.

Akademik A.Nadirov bütün tutduğu vəzifələrdə işləyərkən böyük elmi-yaradıcılıq və elmi-təşkilatçılıq qabiliyyətinə malik olduğunu sübut etmiş, geniş ictimai-siyasi və təşkilati iş aparmış, elmi kadrların seçilməsi, hazırlanması və yerləşdirilməsində müstəsna rol oynamışdır.

O, 1980-ci ildə Azərbaycan EA-nın müxbir üzvü, 1989-cu ildə isə həqiqi üzvü (akademik) seçilmişdir. A.Nadirov hansı vəzifələrdə işləməsindən asılı olmayaraq öz elmi taleyini həmişəlik Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu ilə bağlamış, eyni zamanda həm də bir coğrafiyaşünas alim kimi Coğrafiya İnstitutu ilə əlaqəsini kəsməmiş və bu elm sahəsində də xeyli uğurlar qazanmışdır.

A.Nadirovun bütün elmi yaradıcılıq fəaliyyəti dövrünün ana xəttini Azərbaycan Respublikası sənayesinin inkişafı, onun sahə və ərazi quruluşunun təkmilləşdirilməsi və səmərəli yerləşdirilməsi problemləri təşkil etmişdir. Akademik A.Nadirov hələ keçən əsrin 60-cı illərində respublika iqtisadçıları arasında ilk dəfə olaraq Azərbaycan şəhərlərinin inkişafı problemlərinin tədqiqinə də xeyli qüvvə və vaxt sərf etmiş, perspektivli xırda və orta şəhərləri müəyyənləşdirmiş və onların ən perspektivlərinin regional mədəni-iqtisadi mərkəz kimi formalaşmasının zəruriliyini əsaslandırmışdır.

Prof. A.Nadirov keçən əsrin 60-cı illərinin əvvəllərində həmin ərazi- istehsal komplekslərini tədqiq edərək ilk dəfə olaraq Dağlıq Qarabağ Muxtar Vilayətinin iqtisadi rayon statusunun tələblərinə uyğun gəlmədiyini, ona cavab vermədiyini sübut etmiş və onun Ağdam-Xankəndi iqtisadi rayonunun tərkibinə daxil edilməsi fikrini irəli sürmüşdür. Ancaq çox təəssüflər olsun ki, onun bu əsaslandırılmış baxışları həmin illərdə müvafiq dairələrdə düzgün anlaşılmamış və reallaşmamışdır. Bu baxışlar reallaşsaydı, yəqin ki, indiki Qarabağ faciəsi də baş verməzdi.

Akademik A.Nadirov hələ özünün ilk tədqiqatlarında respublikada ipəkçiliyin və ipək sənayesinin səmərəli inkişafı üçün geniş təbii imkanların, əmək resurslarının, əhalinin böyük istehsal təcrübəsi və tarixi ənənələrinin mövcud olduğunu əsaslandırmışdır. Azərbaycanda qənd istehsalının yaradılması ideyasını da ilk dəfə A.Nadirov irəli sürmüş və onun heyvandarlığın yem bazasının möhkəmləndirilməsi sahəsində də mühüm rol oynaya biləcəyini işıqlandırmışdır. Burada xüsusi olaraq onu da qeyd etmək istərdik ki, hələ keçən əsrin 60-cı illərinin əvvəllərində A.Nadirovun rəhbərliyi və fəal iştirakı ilə Azərbaycanın yeyinti sənayesinin inkişafı və onun ölkə ərazisində düzgün yerləşdirilməsi problemləri kompleks halında tədqiq olunmuşdu. Keçən əsrin 50-ci illərinin axırları və 60-cı illərinin ortalarınadək olan dövrdə apardığı gərgin elmi-tədqiqat işlərinin nəticəsi olaraq A.Nadirov 1968-ci ildə "Azərbaycanda sənayenin səmərəli yerləşdirilməsinin iqtisadi problemləri" mövzusunda elmlər doktorluğu dissertasiya işini müvəffəqiyyətlə müdafiə etmiş və həmin dissertasiya işində irəli sürülüb və əsaslandırılmış elmi müddəalar, təklif və tövsiyələrin bir çoxu istehsalatda öz tətbiqini tapmışdır.

O, keçən əsrin 80-ci illərində "Azərbaycan SSR-də Elmi-Texniki Tərəqqinin Kompleks Proqramı və onun sosial-iqtisadi nəticələri"nin işlənib hazırlanmasının əsas rəhbərlərindən və icraçılarından biri olmuşdur.

Akademik A.Nadirovun yüksək ixtisaslı elmi kadrların hazırlanması sahəsində də əvəzsiz xidmətləri olmuşdur. Onun elmi rəhbərliyi ilə 6 elmlər doktorluğu və 40-dan çox iqtisadiyyat və iqtisadi coğrafiya üzrə fəlsəfə doktorluğu dissertasiyası işləri müdafiə olunmuşdur. Akademik A.Nadirov uzun illər ərzində bir çox ictimai vəzifələrin yerinə yetirilməsində də fəal iştirak etmişdir:

A.Nadirov görkəmli tədqiqatçı alim olmaqla bərabər, həm də elmi işləri tədrislə sıx əlaqələndirməyi bacaran bacarıqlı müəllim olmuşdur. O, 50 ilə yaxın Bakı Dövlət Universitetində və başqa ali məktəblərdə müxtəlif iqtisadiyyat və coğrafiya fənlərindən mühazirələr oxumuşdur. Ali məktəblər üçün bir sıra dərsliklərin yazılmasında da müəllif kimi iştirak etmiş və bəzilərinin elmi redaktoru olmuşdur. O, həm keçmiş İttifaq Respublikalarında, həm də bir çox xarici ölkələrdə keçirilən beynəlxalq simpozium və elmi konfranslarda Azərbaycanın iqtisad və iqtisadi coğrafiya elmini layiqincə təmsil etmişdir. Azərbaycanda keçirilən çoxsaylı beynəlxalq, regional və respublika elmi forum, simpozium və konfransların əsas təşkilatçılarından biri olmuş, maraqlı məruzələrlə çıxış etmişdir.

Alimin elmi yaradıcılığında Naxçıvan Muxtar Respublikasının iqtisadi coğrafiyasına həsr olunmuş tədqiqatları da əhəmiyyətli yer tutur. O, Respublikada Heydər Əliyev İqtisadi İdarəetmə Məktəbinin Elmi-Metodiki Şurasının sədri olmuşdu. Onun xidmətləri həm keçmiş SSRİ dövründə və həm də müstəqillik illərində dövlət tərəfindən yüksək qiymətləndirilmiş, alim SSRİ Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı, "Əmək rəşadətinə görə" medalı, Azərbaycan LKGİ MK-nin Fəxri Fərmanları, Gürcüstan SSR "Bilik" Cəmiyyətinin Fəxri Fərmanı, "Xalqlar dostluğu" ordeni və "Əmək veteranı" medalına layiq görülmüşdür.

Akademik Azərbaycan Respublikası Prezidentinin fərmanları ilə Azərbaycanda elmin inkişafındakı xidmətlərinə görə 2004-cü ildə "Şöhrət", 2009-cu ildə isə "Şərəf" ordeni ilə təltif olunmuşdur.

Akademik A.Nadirov 2014-cü il mart ayının 13-də ömrünün 85-ci ilinin tamam olduğu gündə vəfat etmişdir. Biz onun həmkarları sözün əsil mənasında öz xalqının böyük oğlu olmuş bu görkəmli alimi, böyük vətəndaş və nəcib insanı, gözəl ailə başçısı, dost və həmkarımızı heç zaman unutmayacaq, onun işıqlı yolunun daim işıqlı olaraq qalması üçün son nəfəsimizədək əlimizdən gələni əsirgəməyəcəyik. Qəbri nura dolsun!

**Şahbaz MURADOV**
**AMEA-nın müxbir üzvü,**
**Əməkdar elm xadimi**

# "Ziyayi-Qafqaziyyə" çağımızda

**AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun təşəbbüsü ilə "Ziyayi-Qafqaziyyə" (1880-1884) qəzetinin materialları kitab halında çapdan buraxılıb. Nəşrin baş redaktoru və "Ön söz" müəllifi akademik İsa Həbibbəylidir. Transfoneliterasiyası, lüğət, izah və şərhləri Müştəba Əliyevindir. Kitabı professor Vüqar Əhməd çapa hazırlayıb, ona redaktorluq edib. Rəylər akademik Teymur Kərimli, professor Cahangir Məmmədli və filologiya elmləri doktoru Elçin Mehrəliyevindir. Nəşrin annotasiyasında deyilir ki, "Ziyayi-Qafqaziyyə" (1880-1884) əsrin sonlarına aid ictimai-siyasi vəziyyəti səhifələrində işıqlandırıb. "Əkinçi"dən sonra milli mətbuatdakı boşluğu doldurub, dövrün vacib məsələlərinə diqqət yetirib, materiallar operativliyi ilə seçilib.**

Akademik İsa Həbibbəyli "Ziyayi-Qafqaziyyə" qəzetinin Ədəbiyyat İnstitutu nəşri" adlı "Ön söz"ündə müstəqillik illərində ilk mətbu orqanların toplanması, nəşri, təbliği və tədqiqi işlərinin vacibliyi, onların qaydaya, səliqə-sahmana gətirilməsi niyyətinə diqqət çəkib, milli maarifçilik hərəkatına, onun ədəbi-ideoloji proseslərinə tarixi-çağdaş nəzər fonunda milli mətbu irsin gələcək nəsillərə ötürülməsinin önəmini xatırladıb. Alim milli maarifçilik hərəkatının başlanması və inkişafına, onun sosial-siyasi və mədəni şəraitinə diqqət edib, milli mətbuatımızın banisi, fədakar jurnalist Həsən bəy Zərdabinin "Əkinçi" qəzetinin ictimai-ədəbi mövqeyini yada salıb, onun ölkəmizdə maarifçilik hərəkatının lokomotivi olmaq missiyasını xatırladıb, milli mətbuat tariximizin təşəkkülü sahəsində yaratdığı ənənəni, açdığı yolu dəyərləndirib, onun ədəbi-tarixi funksiyasının gələnəklərini qiymətləndirib. Müəllif yığcam məqaləsində XIX əsr maarifçiliyinin təkamülü gedişində ədəbi-tarixi faktları xatırladıb, "Ziyayi-Qafqaziyyə"nin yerinə, mövqeyinə nəzər yetirib, maarifçilik hərəkatında məktəb, teatr və ədəbiyyat işi ilə yanaşı, qəzetin vacib rolunu, milli-ideoloji hərəkatda obyektiv və subyektiv amilləri hərəkətə gətirmək, yönləndirmək gücünə, funksiyasına dəyər verib.

Maarifçilik proseslərinin daxili-mənəvi təkanları kimi əsrin axırlarına doğru yeni mətbuat orqanları yaranıb və yayılıb. "Kəşkül", "Ziya" və "Ziyayi-Qafqaziyyə" maarifçilik hərəkatının hərəkətverici qüvvəsi kimi məna və mahiyyət daşıyıb, onlar "Əkinçi"nin dayanmasından sonra informasiya məkanına yeni ab-hava, yeni nəfəs ötürüb. XX əsrin əvvəllərində şərəfli estafeti Məhəmməd ağa Şahtaxtlının "Şərqi-Rus", Əli bəy Hüseynzadənin, Əhməd bəy Ağaoğlunun "Həyat", "İrşad" qəzetləri və Cəlil Məmmədquluzadənin "Molla Nəsrəddin", Əli bəy Hüseynzadənin "Füyuzat" jurnalları davam etdiriblər.

Çapı mümkün olmayan qəzet və jurnallar müstəqillik şəraitində yenidən hərəkətə gətirilib, xüsusilə, ölkəmizdə milli mətbuat tarixinin tədqiqi sahəsində mövcud ədəbi ənənələr yeni epoxada davam etdirilib. Bu baxımdan İ.Həbibbəyli məşhur salnaməçi Qulam Məmmədlinin ədəbi-tarixi rolunu xatırladıb, Azərbaycan elmşünaslığında mətbuat tarixi məktəbi yaratdığını yada salıb. AMEA-nın müxbir üzvü Əziz Mirəhmədov isə "Mətbuat tarixi materialları əsasında yaradılmış ədəbiyyatşünaslıq əsərlərinin sanballı örnəklərini meydana qoyub". Alim professor Nazim Axundovun mətbuat tarixinə həsr edilmiş tədqiqatlarını "Azərbaycan mətbuatşünaslığının əhəmiyyətli elmi salnaməsi" adlandırıb.

İ.Həbibbəyli bu sahədə Şirməmməd Hüseynov, Xeyrulla Məmmədov, Ağarəfi Zeynalov, Əflatun Məmmədov, İslam Ağayev, Nəriman Zeynalov, Turan Həsənzadə, habelə, Cahangir Məmmədli, Allahverdi Məmmədli kimi mətbuat xadimlərinin adlarını göstərib, onların "mətbuat tarixinin problemlərinə və simalarına dair çap olunmuş tədqiqat əsərlərində Azərbaycan mətbuatının inkişaf yolu və aparıcı qüvvələrinin fəaliyyətinə diqqət yetirib". Məqalə müəllifi hesab edib ki, müstəqillik dövründə mətbuat tariximizin öyrənilməsində "böyük bir boşluq meydana çıxıb". Lakin "Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda 11 iyun 2014-cü il tarixində yaradılmış Mətbuat tarixi və publisistika şöbəsinin çoxcəhətli və ardıcıl fəaliyyəti ilə nəinki mövcud boşluq aradan qaldırılıb, hətta mətbuatşünaslığımız mühüm addımlarla irəliləyib".

İ.Həbibbəyli Mətbuat tarixi və publisistika şöbəsinin işinə və rəhbərliyinə razılığını ifadə edərək bildirib: "Filologiya elmləri doktoru, professor Vüqar Əhmədin rəhbərlik etdiyi Mətbuat tarixi və publisistika şöbəsi qısa müddətdə burada aparılan tədqiqat işləri, çap olunan kitablar və məqalələr, keçirilən tədbirlərlə Azərbaycan mətbuatşünaslıq elminin əsas mərkəzinə çevrilib. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Mətbuat tarixi və publisistika şöbəsində hazırlanmış "Molla Nəsrəddin" ensiklopediyası" Azərbaycan mətbuat tarixi elminin son 100 il ərzindəki ən böyük nailiyyətidir". İnstitut rəhbəri mövcud jurnalların ərəb qrafikasından latın qrafikasına çevrilərək nəşr edilməsi sahəsində şöbə əməkdaşlarının işindən məmnunluq ifadə edib, onların əməyini yüksək qiymətləndirib.

Mətbuat tarixi və publisistika şöbəsində Vüqar Əhməd, Rauf Sadıxov, Elçin Mehrəliyev, Gülbəniz Babayeva, Dilbər Rzayeva, Gülnar Səma, Şahanə Məmmədova kimi tanınmış tədqiqatçıların elmi əsərləri bu elmi istiqamətin yeni inkişaf dövrünə qədəm qoymasının göstəricisidir. Gülbəniz Babayevanın "Molla Nəsrəddin" və türk satirik mətbuatı" mövzusunda filologiya elmləri doktorluğu dissertasiyası müstəqillik dövrü Azərbaycan mətbuat elminin mühüm nailiyyətlərindəndir.

Hazırda şöbə əməkdaşları XIX əsrin axırları, XX əsrin əvvəllərinə aid mətbuat nümunələrinin ərəb qrafikasından müasir latın əlifbasına çevrilməsi və kitab halında nəşri işləri ilə məşğuldur. Bu sahədə mərhum Müştəba Əliyevin xidmətləri




böyük olub. O, Səid Ünsüzadənin "Təlimül ətval, təhzibül əxlaq" əsərini latın qrafikasında nəşr edib, "Kəşkül" qəzeti üzərində transliterasiya işlərini davam etdirib. Müştəba Əliyev "Ziya" qəzetini latın qrafikasında çapa hazırlayıb və nəşr etdirib. Uzun illər çalışdığı "Ziyayi-Qafqaziyyə" qəzetini də latın qrafikasında çapa hazırlayıb. İ.Həbibbəyli bildirib: "Müştəba Əliyev Qulam Məmmədli məktəbinin ənənələrinə sadiq qalaraq, latın qrafikasına çevirdiyi mətnlərin dəqiqliyinə xüsusi diqqət göstərmiş, mətnlərdəki ərəb-fars sözlərinin lüğətini verməklə müasir dövrün tədqiqatçılarını və oxucularının işini asanlaşdırmışdır. Bu mənada Müştəba Əliyevin "Ziya" və "Ziyayi-Qafqaziyyə" qəzetlərini latın qrafikasına çevirməsi Azərbaycanda mətbuat tarixçiliyinə əsl xidmət nümunəsidir".

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu "Ziyayi-Qafqaziyyə" qəzetinin latın qrafikasında transliterasiya olunmuş mətnini kitab halında çap etməklə zəhmətkeş ziyalı Müştəba Əliyevə olan hörmətini ifadə edib, onun böyük zəhmətini yüksək qiymətləndirib. "Eyni zamanda "Ziyayi-Qafqaziyyə" qəzetinin ilk dəfə latın qrafikası ilə nəşr edilərək oxuculara və tədqiqatçılara çatdırılması milli mətbuat tariximizin keçdiyi çətin və şərəfli yolun dərslərini bu qəzetin günümüz üçün də əhəmiyyətli olan maarifçi ideyalarını yeni nəsillərə təşviq etmək baxımından da faydalıdır. Heç şübhəsiz, "Ziyayi-Qafqaziyyə" qəzetinin Ədəbiyyat İnstitutu nəşri milli mətbuatşünaslıq və mətbuat tarixi elmi istiqamətlərinin daha da inkişaf etdirilməsinə xidmət edən zəngin və qiymətli bir məktəbin meydana qoyulması baxımından da əhəmiyyətlidir",- deyə İ. Həbibbəyli yazıb.

Professor V.Əhməd "Ziyayi-Qafqaziyyə" kitabının redaktoru kimi "Ön söz"ündə Müştəba Əliyevi tanınmış publisist və mətnşünas kimi səciyyələndirib. "Ziyayi-Qafqaziyyə" qəzeti komplekt halında 1089 səhifədir. Ön söz akademik İsa Həbibbəylinin, tərtibat və redaktor yazısı professor Vüqar Əhmədin, əsas hissə Ziyayi-Qafqaziyyə" qəzetinin mündəricəsi (1880-1884), "Qeydlər və izahlar", "Lüğət" isə Müştəba Əliyevindir.

20 fevral 2024-cü ildə Mətbuat Şurasında qəzetin transliterasiyasının təqdimatı keçirilib. Mərasimdə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu və Bakı Dövlət Universitetinin əməkdaşları, habelə, media mənsubları və təcrübəçi tələbələr iştirak ediblər. Mərasimi giriş sözü ilə Mətbuat Şurasının sədri Rəşad Məcid açıb. İnstitutun icraçı direktoru Mehman Həsənli, əməkdaşı Ülkər Hüseynova, şöbə müdiri Vüqar Əhməd, BDU-nun Jurnalistika fakültəsinin professoru Cahangir Məmmədli, "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı, "İşıq" jurnalının məsul redaktoru Əsəd Asanoğlu, Əməkdar jurnalist Azər Həsrət, BDU-nun professoru Allahverdi Məmmədli çıxış edib. Müştəba Əliyevin ailəsi adından tarixçi-alim Akif Nağı, mərhumun oğlu Səid Əliyev təqdimat mərasiminin təşkili üçün rəhbərliyə təşəkkür və minnətdarlığını bildiriblər.

**Əlizadə ƏSGƏRLİ**
**AMEA-nın Ədəbiyyat İnstitutunun**
**baş elmi işçisi, filologiya elmləri doktoru**

# Məhəmməd Füzuli və Cəlil Məmmədquluzadə: kəsişən xətlər və paralellər

*Məhəmməd Füzulinin anadan olmasının 530, Cəlil Məmmədquluzadənin 155 illiyi münasibətilə*





**Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin" məcmuəsinin 1925-ci il 23 may tarixli nömrəsində dərc olunan "Füzuli" başlıqlı məqaləsində yazırdı: "Füzuli "Molla Nəsrəddin"in birinci nömrəsindən başlayıb bu günə qədər məcmuəmizdə iştirak edib və şeirlər yazıbdır. Füzuli bizim məcmuəmizdə işləyir. Yenə də işləyəcəkdir". Mirzə Cəlil bu sözləri "Molla Nəsrəddin"ə münasibətdə deyirdi. Biz isə belə bir cəsarətli fikri irəli sürmək istəyirik ki, Füzuli Mirzə Cəlilin yaradıcılığa başladığı gündən hər zaman onun qələm məsləkdaşı, məfkurə yoldaşı olub. Düzdür, Cəlil Məmmədquluzadə Füzuli ədəbi məktəbinin davamçısı olmayıb, lakin Füzulini diqqətlə öyrənib, ondan bəhrələnib.**

Cəlil Məmmədquluzadə həmin məqalədə onu da qeyd edirdi ki: "("Molla Nəsrəddin"də) hansı şeirə baxsanız, görəcəksiniz ki, onda Füzulidən bir duz vardır". Böyük ədib bu fikrini məcmuədə dərc olunan poetik əsərlər haqqında deyirdi. Biz isə həmin faktı genişləndirib, daha cəsarətlə demək istəyirik ki, Mirzə Cəlilin yaradıcılığı da elə Füzulinin sənət idealının yeni məcrada, yeni biçimdə davamı idi. Sadəcə, dövr başqa idi, tələblər özgə idi. Sənətkarların həyata baxışları isə dəyişməmişdi, hadisələrə verilən qiymət və sənət idealları eyni idi.

İndi isə Cəlil Məmmədquluzadə və Füzuli ədəbi irsi arasında paralellər aparmağa çalışaq:

- Hər iki sənətkar mövcud reallığın alleqorik dərkində bir-birinə çox yaxınlaşır. Həm Füzuli, həm də Mirzə Cəlil yaradıcılığın ilk mərhələsində həyat hadisələrinin alleqorik təsvirinə müraciət edir. Belə ki, Cəlil Məmmədquluzadənin "Çay dəsgahı" alleqorik dramı forma və üslub cəhətdən Füzuli alleqoriyalarını xatırladır. Bu əsərdə müxtəlif zümrələri təmsil edən Samovar, Podnos, Çaynik, Stəkan, Nəlbəki, Çay qaşığı və digərlərinin dialoqları Füzulinin "Söhbət ül-əsmar" münazirəsindəki Aluçə, Gilas, Zərdalu, Alma, Badam, Qovun, Qarpız kimi şərti alleqorik obrazların mübahisəsini xatırladır.

-İki sənətkarın yaratdığı obrazlar arasında müəyyən mənada yaxınlıq var. Məsələn, Cəlil Məmmədquluzadə "Anamın kitabı" pyesində Rüstəm bəy, Mirzə Məhəmmədəli, Səməd Vahid surətlərində müxtəlif dünyagörüşünə malik zümrələrin nümayəndələrinin həm müsbət, həm də mənfi cəhətlərini təsvir etməklə onlardan heç birinə üstünlük vermir, onları bərabərləşdirir. Füzuli isə "Rindü Zahid" əsərində bir-birinə müxalif və zidd qütbü - riyakar Zahidlə zinakar Rindin nöqsan və məziyyətlərini açıqlayaraq onları eyniləşdirir. Füzulidə Zahid və Rind ata və oğul, Cəlil Məmmədquluzadədə isə Rüstəm bəy, Mirzə Məhəmmədəli, Səməd Vahid qardaşdırlar.

- İstər Cəlil Məmmədquluzadə, istərsə də Məhəmməd Füzuli öz əsərlərində dövrə, köhnə adət-ənənələrə müxalif olan baş qəhrəman yaradıblar. "Ölülər" tragikomediyasında İsgəndər, "Leyli və Məcnun" poemasında Qeys "hələ çox qüvvətli olan" köhnə adət-ənənələrə qarşı mübarizə aparır, yeni əsrin ruhu ilə nəfəs alırlar.

"Ölülər" əsərində Hacı Həsən ağa və Kərbəlayı Fatma özləri də bilmədən qızlarını bədbəxt edirlər. "Leyli və Məcnun"da da oxşar mənzərə ilə rastlaşırıq. Bu əsərdəki ata və ana da köhnə adət-ənənələrin tələblərindən çıxış edərək öz övladlarının faciəsinə səbəb olurlar.

Cəlil Məmmədquluzadənin "Ölülər"ində də, Məhəmməd Füzulinin "Leyli və Məcnun"unda İsgəndərin sözü, Nofəllərin qılıncı dövrün ədalətsiz tələbləri qarşısında gücsüz görünür.

- Hər iki sənətkar musiqinin insan ruhuna sirayətini dərindən dərk edir. Füzuli "Yeddi cam" əsərində çalğı alətlərinin ecazkar təsirini, musiqinin idraki əhəmiyyətini bəlağətli dillə ifadə edir, Cəlil Məmmədquluzadə də "Kamança" pyesində bu musiqi alətinin nəvalı sədasının insan şüuruna psixoloji təsirini verməyə müvəffəq olur.

Beləliklə, ilk baxışda Füzuli və Cəlil Məmmədquluzadə irsi arasında oxşar xüsusiyyətlər görmək mümkün deyilsə də, bu iki sənətkarın irsini diqqətlə araşdırdıqda onların yaradıcılıqları arasında müəyyən uyğun cəhətlər nəzərə çarpır. Bəlli olur ki, hər iki sənətkarın yaradıcılığında kəsişən xətlər olduğu kimi yanaşı gələn paralellər də çoxdur.

**Əzizağa NƏCƏFZADƏ**
**AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun elmi katibi, filologiya üzrə fəlsəfə doktoru, dosent**

# Tanınmış iqtisadçı alim İsa Alıyev vəfat edib



**Tanınmış iqtisadçı alim, Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunun Aqrar sektorun iqtisadi problemləri şöbəsinin müdiri iqtisad elmləri doktoru, professor İsa Hüseyn oğlu Alıyev martın 9-da dünyasını dəyişib.**

İsa Alıyev 1953-cü il oktyabrın 8-də Dərələyəz rayonunun Qalaser kəndində anadan olub. Orta məktəbi 1970-ci ildə bitirib, 1970-75-ci illərdə keçmiş D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun "Siyasi iqtisad" ixtisasına qəbul olub və oranı bitirib. 1975-ci ildə əyani aspiranturaya qəbul olub, 1976-77-ci illərdə ordu sıralarında hərbi xidmətdə qulluq edib.

1982-ci ildə Azərbaycan SSR EA İqtisadiyyat İnstitutunda "Aqrar sənaye birliklərində iqtisadi mənafelərin əlaqələndirilməsi" adlı siyasi iqtisad ixtisası üzrə namizədlik, 2005-ci ildə "Azərbaycanda aqrar sahədə iqtisadi idarəetmə mexanizminin təkmilləşdirilməsi" adlı doktorluq dissertasiyasını müdafiə edib. "İqtisadiyyat nəzəriyyəsi" ixtisası üzrə professor elmi adını alıb.

İ.Alıyev 2008-2014-cü illərdə İqtisadiyyat İnstitutunun direktoru işləyib. O aqrar sahə üzrə ölkənin tanınmış iqtisadçı alimlərindən idi. Uzun illər İqtisadiyyat İnstitutunun aqrar elminin inkişafı problemləri ilə məşğul olan şöbəsinə rəhbərlik etmişdir. 40-dan çox beynəlxalq və 100-dən çox respublika miqyaslı elmi tədbirlərin iştirakçısı olmuşdur. Ümumilikdə 300-dən çox elmi işin, o cümlədən aqrar elmi ilə bağlı monoqrafiyaların, kitabların müəllifi idi. 40-dan artıq müdafiə olunmuş fəlsəfə doktoru və elmlər doktoru dissertasiyasına rəhbərlik etmişdir.

İ.Aliyev 2011-ci ildə Avropa Biznes Assambleyasının (EBA) Ekspertlər Şurası tərəfindən "İlin ən yaxşı top-meneceri", 2012-ci ildə "Elmdə ad" fəxri adına, 2013-cü ildə isə Beynəlxalq Sokrat Mükafatına layiq görülüb. Alim Avrasiya Beynəlxalq İqtisadçılar İttifaqının yaradıcılarından biri, Avropa Təbiət Elmləri Akademiyasının üzvü idi. 2016-cı ildə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə "Tərəqqi" medalı ilə təltif edilmişdir.

Tanınmış alimin xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

Allah rəhmət eləsin!

**ELAN-MÜSABİQƏ**

## Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti Akademiyanın yeni loqotipinin - embleminin hazırlanması üçün müsabiqə elan edir

**AMEA-nın inkişafının hazırkı yeniləşmə mərhələsi müasir elmi çağırışlara, informasiya cəmiyyətinin tələblərinə, həmçinin son dövrlərdə Akademiyanın fəaliyyət istiqamətlərində baş verən dəyişikliklərə cavab verən loqotipinin - embleminin yenidən hazırlanması zərurəti yaranmışdır.**

Bunu nəzərə alaraq AMEA Rəyasət Heyətinin 9 yanvar 2024-cü il tarixli iclasında Akademiyanın loqotipinin - embleminin hazırlanması üçün müsabiqə elan edilməsi ilə əlaqədar qərar qəbul edilmişdir.

Müsabiqənin şərtləri aşağıdakı kimidir:

- AMEA-nın yeni loqotipi - emblemi müasir dünyanın elmi çağırışları və ənənələrini, Milli Elmlər Akademiyasının əsas məqsədləri, vəzifələri, hədəfləri ilə bağlı simvol və təsvirlərin elementlərini əks etdirməlidir;
- AMEA-nın emblemində Akademiya ilə bağlı tarixi binaların, qurğuların və digər əlamətlərin simvolik təsvirlərindən istifadə etməklə bu emblemin Azərbaycan Milli Elmlər Akademiyasına aid olduğu öz əksini tapmalıdır;
- AMEA-nın yeni embleminin təqdim olunan layihəsində "Azərbaycan Milli Elmlər Akademiyası" sözlərinin yazılmasına ehtiyac yoxdur. Zəruri halda bu məqsədlə "AMEA" formatından istifadə edilə bilər;
- AMEA-nın yeni loqotipinin - embleminin layihəsi dairəvi formada yağlı boya ilə və ya rəngli qrafika ilə işlənilməlidir;
- Təqdim edilən emblem - loqotipin eni 30 sm, uzunluğu 42 sm həcmində olmalıdır;
- Müsabiqədə yalnız Akademiyada çalışıb, təsviri sənətlə məşğul olan və digər əməkdaşlar iştirak edə bilərlər;
- AMEA embleminin layihələri müsabiqə komissiyasının və ictimaiyyətin baxması məqsədilə təşkil ediləcək sərgidə nümayiş etdirmək üçün malbertin üzərində qoyulmaqla təqdim olunmalıdır;
- Təqdim edilmiş emblemlərin layihələrinin üzərində və ya arxasında müəlliflərin adı və soyadı qeyd edilməməlidir;
- Təqdim olunan loqotip dizaynının məntiqi izahı, forması, ölçüsü, rəngi, hərf seçimi və s. ilə bağlı əlavə məlumatlar da təqdim edilməlidir;
- Müsabiqə Komissiyası tərəfindən təqdim edilən loqotipin - emblemin dizaynına müəyyən yekun dəyişikliklər edilə bilər;
- Qalib işin müəllifi pul mükafatı ilə təltif ediləcək, ona müvafiq sertifikat veriləcəkdir.

**Müsabiqədə iştirak etmək istəyən namizədlər mart ayının 18-i, günün sonunadək layihələrini təqdim edə bilərlər.**

**Əlaqələndirici şəxs:**
**Arzu Məmmədxanlı, əlaqə tel.:**
**(012) 492-66-22, (050) 549-74-04,**
**e-poçt: humanitarelmlerbolmesi@gmail.com**
**Ünvan: Bakı ş., İstiqlaliyyət küç., 30 (AMEA Rəyasət Heyətinin binası, 2-ci mərtəbə)**

***Müsabiqə Komissiyası***

## Riyaziyyat və Mexanika İnstitutu

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Riyaziyyat və Mexanika İnstitutu aşağıdakı vəzifələri tutmaq üçün müsabiqə elan edir:**

**Funksional analiz şöbəsi üzrə**
Aparıcı elmi işçi -1 ştat vahidi
**Diferensial tənliklər şöbəsi üzrə**
Baş elmi işçi -1 ştat vahidi
Böyük elmi işçi -1 ştat vahidi
Kiçik elmi işçi -2 ştat vahidi
**Riyazi analiz şöbəsi üzrə**
Aparıcı elmi işçi -1 ştat vahidi
Kiçik elmi işçi -2 ştat vahidi
**Qeyri-harmonik analiz şöbəsi üzrə**
Böyük elmi işçi -1 ştat vahidi
**Funksiyalar nəzəriyyəsi şöbəsi üzrə**
Böyük elmi işçi -1 ştat vahidi
**Riyazi fizika tənlikləri şöbəsi üzrə**
Kiçik elmi işçi -1 ştat vahidi
**Tətbiqi riyaziyyat şöbəsi üzrə**
Böyük elmi işçi -1 ştat vahidi
**Optimal idarəetmə şöbəsi üzrə**
Kiçik elmi işçi -1 ştat vahidi
**Siqnalların emalının riyazi problemləri laboratoriyası üzrə**
Aparıcı elmi işçi -1 ştat vahidi
Kiçik elmi işçi -1 ştat vahidi
**Deformasiya olunan bərk cisim mexanikası şöbəsi üzrə**
Aparıcı elmi işçi -1 ştat vahidi
Böyük elmi işçi -1 ştat vahidi
Elmi işçi -1 ştat vahidi
Kiçik elmi işçi -1 ştat vahidi
**Maye və qaz mexanikası şöbəsi üzrə**
Aparıcı elmi işçi -1 ştat vahidi
Böyük elmi işçi -1 ştat vahidi
Kiçik elmi işçi -1 ştat vahidi
**Dalğa dinamikası şöbəsi üzrə**
Böyük elmi işçi -1 ştat vahidi

